RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 207 (9086) ŞƏNBƏ, 24 sentyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Azərbaycan ilə Səudiyyə Ərəbistanını ortaq mənəvi dəyərlərdən qaynaqlanan dostluq və qardaşlıq münasibətləri birləşdirir

İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səuda



→ 2

## XİN: "Azərbaycan Ermənistanın cinayətlərinə hüquqi qiymətin verilməsi üçün bütün beynəlxalq mexanizmlərdən istifadə edəcək"

Məlum olduğu kimi, ötən ilin sentyabr ayında Azərbaycan Ermənistana qarşı BMT-nin Beynəlxalq Ədalət Məhkəməsində "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiya üzrə dövlətlərarası iddialar qaldırıb.

Məhkəmə Azərbaycanın verdiyi vəsatətlər əsasında 2021-ci il dekabrın 7-də Ermənistana qarşı müvəqqəti tədbirlərə dair yekdilliklə qərarlar qəbul edib.

→ 3

## Çırağımız Laçında əbədi yanacaq

21 sentyabr Azərbaycan tarixinə həkk edilən unudulmaz günlərdən biridir. Prezident İlham Əliyevin Laçın səfərində xalqımıza ucalıq, şərəf, rəşadət və mərdanə bir döyüşkənlik gətirən əzəmətli səhnənin - Azərbaycan bayrağının göylərə ucalmasının şahidi olduq.



→ 4



# Sərkərdə qətiyyətinin ifadəsi

## İlham Əliyevin Laçın bəyanatı Ermənistana və havadarlarına açıq mesaj idi

**"İkinci Qarabağ müharibəsindən sonra Ermənistanla sülh müqaviləsi imzalamaq istəyirik. Ancaq əgər düşmən bizə qarşı təxribat törədəcəksə, layiqli cavabını verəcəyik. Bu gün Ermənistan yaxşı fikirləşməlidir. Bizimlə heç kim ultimatum dili ilə danışa bilməz və heç kimə də bel bağlamasınlar. Mən bir daha demək istəyirəm ki, bizi heç kim və heç nə dayandıra bilməz".**

→ 3

## Türkiyə nümayəndə heyəti Şuşa şəhəri ilə tanış olub




Türkiyənin səhiyyə naziri Fahrettin Kocanın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana səfəri çərçivəsində sentyabrın 23-də Qarabağın incisi, Azərbaycanın tarixi və mədəniyyətinin simvolu olan Şuşa şəhərini ziyarət edib.

AZƏRTAC xəbər verir ki, qonaqların Azərbaycan mədəniyyətinin paytaxtı ilə tanışlığı ölkəmizin tanınmış şəxsiyyətləri Bülbül, Xurşidbanu Natəvan və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərinin yerləşdiyi Şuşa şəhər mərkəzi meydanından başlayıb.

→ 6

## Hərbdən sülhə

### Ədaləti güc yolu ilə bərqərar edən İlham Əliyev indi də bölgədə sülhün yeganə təminatçısıdır

"Həmişə deyirdim ki, məsələ sülh yolu ilə həll olunmasa, bunu hərb yolu ilə həll edəcəyik və etdik. Cəmi 44 gün ərzində Ermənistan ordusunu darmadağın etdik. Alınmaz qala sayılan Şuşanı azad etdik. Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Hadrutu, Xocavəndi döyüş meydanında azad etdik. Düşmən diz çökdü və Laçını, Kəlbəcəri, Ağdamı tərk etməyə məcbur oldu".

→ 4

## Erməni hərbi birləşmələri tərəfindən basdırılmış tələ-mina aşkar edilib

Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri azad edilmiş ərazilərimizin minalardan təmizlənməsi istiqamətində fəaliyyətlərini davam etdirirlər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, erməni hərbi birləşmələri tərəfindən Xocalı rayonu istiqamətində basdırılmış Ermənistanda istehsal olunmuş piyada əleyhinə PMN-E minalarından ibarət beş ədəd tələ-mina aşkar edilib. Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən aşkarlanan minalar çıxarılaraq daşınıb və təhlükəsizlik qaydalarına riayət olunmaqla zərərsizləşdirilib.



## Sürət həddinin azaldılması şəhər mobilliyini gücləndirir

### Bu, yolda hərəkətin təhlükəsizliyinə xidmət edir

Bu gün dünyanın böyük şəhərlərində dayanıqlı şəhər mobilliyinin tətbiqinə xüsusi əhəmiyyət verilir. Əhalinin sıx olduğu şəhərlərdə alternativ nəqliyyat vasitələrindən istifadənin təşviqi üçün müəyyən tədbirlər görülür.

Doğrudur, təyinat nöqtəsinə şəxsi avtomobil vasitəsilə istədiyimiz yol və sürətlə, hətta sevdiyimiz musiqini dinləməklə getmək çox rahatdır. Amma nəzərə almaq lazımdır ki, böyük şəhərlərdə vətəndaşların avtomobillə şəxsi komfortlarını təmin etmək istəyi bəzən tıxaclara səbəb olur.

Şəhərlərdə vətəndaşların daha effektiv nəqliyyat vasitələrindən istifadəsi daim diqqətdə olan məsələdir. Bu istiqamətdə atılan addımlardan biri də bəzi küçələrdə sürət həddinin azaldılmasıdır. Çünki sürət həddi aşağı olan yollarda şəxsi avtomobillə hərəkət edib tıxacda qalmaqdansa, ictimai nəqliyyat növləri və velosiped kimi daha təhlükəsiz və təmiz vasitələrdən istifadə daha düzgün seçimdir.

→ 7

## Qlobal təhdid olan "TikTok"un milli təhlükəsi

### Bu sosial şəbəkə artıq gənclərlə yanaşı, yeniyetmə və uşaqları da zərərli təsiri altına alır




→ 7

## Mövsümi qriplərdən necə qorunaq?

Payız aylarında qrip və kəskin respirator virus infeksiyalarına yoluxma hallarında artımın baş verməsi təbiidir.

Bəs mövsümi xəstəliklərdən necə qorunmaq olar? Vaksinasiya respirator xəstəliklərindən insanları nə dərəcədə qoruyur? Mövzu ilə bağlı suallarımıza Kliniki Tibbi Mərkəzin həkim-infeksionisti Aişə Kərimova aydınlıq gətirdi.

### Kəskin respirator virus infeksiyaları ən çox yayılan və epidemiyaya meyilli xəstəliklərdəndir

Həkimin sözlərinə görə, hər il payız və qış mövsümündə mütəmadi olaraq kəskin respirator virus infeksiyalarına yoluxma hallarında artım tendensiyası müşahidə edilir. Ölkəmizdə pandemiya dövründə vəziyyət məqbul idi, xəstə sayında ötən illərlə müqayisədə azalma var idi: "Bunun başlıca səbəbi pandemiya ilə əlaqədar tibbi maskadan istifadə, gigiyena-sanitariya qaydalarına və sosial məsafəyə riayət edilməsi idi".

İnfeksionist qeyd etdi ki, kəskin respirator virus infeksiyaları, əsasən, hava-damcı yolu ilə ötürülür və tənəffüs yollarının iltihablaşması ilə nəticələnir. Kəskin respirator virus infeksiyaları Yer üzərində ən çox yayılan və epidemiyaya meyilli xəstəliklərdəndir.

→ 8



## İşğal zamanı Azərbaycanın ən gözəl inciləri məhv edildi

→ 6

# Azərbaycan ilə Səudiyyə Ərəbistanını ortaq mənəvi dəyərlərdən qaynaqlanan dostluq və qardaşlıq münasibətləri birləşdirir

## İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səuda

Əlahəzrət!

Əziz Qardaşım!

Səudiyyə Ərəbistanı Krallığının milli bayramı - Krallıq elan edilməsi Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Səudiyyə Ərəbistanını xalqlarımızın ortaq mənəvi dəyərlərindən qaynaqlanan dostluq və qardaşlıq münasibətləri birləşdirir. Daim genişlənən siyasi dialoqumuz, dövlətlərarası əlaqələrimizin yüksək səviyyəsi əməkdaşlığımızın hərtərəfli inkişafına böyük töhfə verir. Hazırda bu xoş ənənələr üzərində qurulan, qarşılıqlı inam və dəstəyə əsaslanan tərəfdaşlığımızın müvəffəqiyyətlə inkişaf etməsi məmnunluq doğurur.

Qardaş ölkənizin beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına verdiyi daimi dəstəyini və ədalətli mövqeyini xalqımız heç zaman unutmur.

Ölkəmizin ərazi bütövlüyünü bərpa etməsi iqtisadi sahədə, xüsusilə də energetika sahəsində əməkdaşlıq imkanlarımızı daha da artırmışdır. Eyni zamanda Səudiyyə Ərəbistanının aparıcı şirkətlərindən olan "ACWA Power" şirkəti tərəfindən Azərbaycanda külək elektrik stansiyasının tikintisi bərpaolunan enerji sahəsində səmərəli əməkdaşlığımızın bariz nümunəsidir.

Əminəm ki, qardaş xalqlarımızın iradəsinə uyğun olaraq Azərbaycan-Səudiyyə Ərəbistanı dostluq münasibətləri, güclü islam həmrəyliyinə əsaslanan ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız bundan sonra da birgə səylərimizlə genişlənəcək və möhkəmlənəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Səudiyyə Ərəbistanının qardaş xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 sentyabr 2022-ci il*

# Vyetnam Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir

## Vyetnam Sosialist Respublikasının Prezidenti zati-aliləri cənab Nquyen Suan Fuka

Hörmətli cənab Prezident!

Sentyabrın 23-də Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30 ili tamam olur. Bu əlamətdar tarix münasibətilə Sizi və dost xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Azərbaycan ilə Vyetnam arasında dostluq və əməkdaşlıq münasibətlərinin əsası hələ ötən əsrdə xalqımızın Ümummilli Lideri Heydər Əliyev və Vyetnam xalqının böyük oğlu Ho Şi Min tərəfindən qoyulmuşdur. Məmnunluqla qeyd etmək istərdim ki, bu əlaqələr uğurla davam etdirilərək son otuz ildə yüksələn xətt üzrə inkişaf etmiş və hazırkı səviyyəyə çatmışdır.

Biz Azərbaycan-Vyetnam münasibətlərinə böyük əhəmiyyət veririk. Sağlam təməl üzərində qurulmuş dövlətlərarası münasibətlərimiz, siyasi, ticari, iqtisadi, mədəni və digər sahələrdə səmərəli əməkdaşlığımız bizi sevindirir.

Eyni zamanda beynəlxalq təşkilatlar, xüsusilə də BMT və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan konstruktiv əməkdaşlığımızı xüsusi qeyd etmək istərdim. Vyetnamın beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına verdiyi dəstəyinə və ədalətli mövqeyinə görə minnətdarıq.

Bu gün iqtisadi-ticari, enerji, nəqliyyat, kənd təsərrüfatı, sərmayə qoyuluşu və digər sahələrdə tərəfdaşlığımızın əhatə dairəsinin genişlənməsi üçün yaxşı imkanlar vardır. İnanıram ki, dost xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Vyetnam arasında əlaqələrin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığımızın daha da genişləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Vyetnam xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 sentyabr 2022-ci il*

# Vyetnam və Azərbaycan arasında dostluq və hərtərəfli əməkdaşlıq münasibətləri qurulub

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Vyetnam ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə Vyetnam dövləti və xalqı adından Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram.

Son 30 ildə ölkələrimiz arasında ənənəvi dostluq münasibətlərinin inkişaf etməsi və möhkəmlənməsi məmnunluq doğurur. Birgə səylərimizlə Vyetnam və Azərbaycan arasında ölkələrimizin inkişafına fəal şəkildə töhfə verən və ikitərəfli əlaqələr üçün möhkəm təməl yaradan dostluq və hərtərəfli əməkdaşlıq münasibətləri qurulmuşdur.

Mən qəti şəkildə inanıram ki, hər iki ölkənin liderlərinin iradəsi və əzmkarlığı, nazirliklərin və digər qurumların birgə səyləri, eləcə də xalqlarımız arasında əlaqələr sayəsində Vyetnam-Azərbaycan əməkdaşlığı dövlətlərimizin mənafeyi, həmçinin dünyada sülh və inkişaf naminə bundan sonra daha da möhkəmlənəcək və genişlənəcəkdir.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə uğurlar arzu edirəm.

Hörmətlə,

***Nquyen Suan FUK,***
***Vyetnam Sosialist Respublikasının Prezidenti***

# Vitse-spiker Adil Əliyev MDB PA-nın Müdafiə və təhlükəsizlik məsələləri üzrə daimi komissiyasının sədr müavini seçilib

Sentyabrın 23-də Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyasının Müdafiə və təhlükəsizlik məsələləri üzrə daimi komissiyasının iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası giriş sözü ilə açan Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev toplantı iştirakçılarını salamlayaraq komissiyanın işinə uğurlar arzulayıb. Təhlükəsizlik, sərhədlərin toxunulmazlığı məsələsinin vacibliyinə toxunan sədr müavini, dövlətlərin sülh içində birgə yaşamalı olduğunu, bir-birinin sərhədlərinə hörmətlə yanaşmasının zəruriliyini diqqətə çatdırıb. Ölkələrarası münasibətlərin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun tənzimlənməli olduğunu qeyd edən vitse-spiker daha sonra hazırlanan qanun layihələri və gündəlik barədə geniş məlumat verib.



Sonra "Milli təhlükəsizlik haqqında" model qanun layihəsi, "Sərhəd təhlükəsizliyi haqqında", "Dövlət sərhədi haqqında" model qanunlara dəyişikliklər edilməsi barədə məsələlər müzakirə olunub.

İclasda Adil Əliyev Müstəqil Dövlətlər Birliyinin Parlamentlərarası Assambleyasının Müdafiə və təhlükəsizlik məsələləri üzrə daimi komissiyasının sədr müavini vəzifəsinə seçilib.

MDB PA-nın iclaslarında Milli Məclisin deputatı Arzu Nağıyev də iştirak edib.

***"Azərbaycan"***

# Milli Məclisin komitələrinin iclasları keçirilib

Sentyabrın 23-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, deputatları salamlayan komitənin sədri Tahir Mirkişili bildirib ki, gündəliyə 15 məsələ daxil edilib.

Gündəliyin təsdiqindən sonra komitə sədri qeyd edib ki, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində yaradılan üç işçi qrupundan ikisinin ötən iclasda görülən işlərlə bağlı məruzəsi dinlənilib. Bu iclasda isə komitənin üzvü Vüqar Bayramov rəhbərlik etdiyi işçi qrupunun gördüyü işlərlə bağlı məruzə edəcək.

Deputat Vüqar Bayramov qrupun vergi məsələləri ilə bağlı gördüyü işlər barədə məlumat verərək müvafiq dövlət orqanları ilə qurulan faydalı əməkdaşlıq, aparılan müzakirələr haqqında danışıb.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başlayıb.

Komitənin sədri birinci məsələnin "Dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsinin qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında", "Maliyyə-sənaye qrupları haqqında" və "Torpaq icarəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) olduğunu bildirib. Qeyd edib ki, layihədəki ilk iki qanuna dəyişiklik Azərbaycan Prezidentinin müvafiq fərmanı ilə Vergilər Nazirliyinin, Əmlak Məsələləri Dövlət Komitəsinin və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin İqtisadiyyat Nazirliyinin strukturuna daxil edilməsi ilə bağlı qanunvericiliyin uyğunlaşdırılması məqsədilə hazırlanıb.

Layihədəki "Torpaq icarəsi haqqında" qanuna dəyişikliklə bağlı Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov məlumat verib. O bildirib ki, qanunun 5-ci maddəsində "dövlət müəssisə, idarə və təşkilatlarının yerləşdiyi" ifadəsinin daha geniş əhatəyə malik "dövlətə məxsus olan hüquqi şəxslərin istifadəsində olan" ifadəsi ilə əvəzlənməsi təklif olunub.

Tahir Mirkişili bildirib ki, gündəliyin 2-ci, 13-cü, 14-cü və 15-ci məsələləri bir-biri ilə yaxındır və onlar haqqında ümumi məlumat vermək üçün İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti rəisinin müavini Samirə Musayevaya söz verilib. Bildirilib ki, Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında birinci oxunuşda olan iki qanun layihəsi vergi orqanları və onların vəzifəli şəxsləri tərəfindən vergi ödəyiciləri haqqında məlumatın hansı hallarda və hansı orqanlara (qurumlara) verilə bilməsi, eyni zamanda aksizli və məcburi nişanlama ilə nişanlanmalı malların dövriyyəsinə vergi nəzarətinin təmin edilməsi məqsədləri ilə hazırlanıb.

Vergi Məcəlləsində "Sosial sığorta haqqında", "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Tibbi sığorta haqqında" və "Daşınar əmlakın yüklülüyü haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) isə Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında 3 dekabr 2021-ci il tarixli 406-VIQD nömrəli qanuna uyğun olaraq hazırlanıb. Dövlət Vergi Xidməti rəisinin müavini təklif olunan dəyişikliklərin istiqamətləri ilə bağlı deputatlara ətraflı arayış verib.

"Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı qeyd edilib ki, qanuna təklif olunan əlavəyə görə tütün məmulatlarının istehsalçıları və idxalçıları Dövlət Vergi Xidmətinin informasiya sisteminə qoşulması barədə bildirişi aldıqları tarixdən bir ay müddətində həmin məmulatlara tətbiq edilməsi üçün alınmış məcburi nişanlamaya görə dövlət rüsumundan azad olunurlar. Həmçinin həmin müddətin bir aydan çox olmamaq şərtilə 5 dəfə uzadılması halı da nəzərdə tutulub.

Gündəliyin digər məsələləri müzakirəyə təqdim olunarkən onlar haqqında komitə sədri Tahir Mirkişili məlumat verib. Bildirilib ki, "Gömrük tarifi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) siyahısı müvafiq orqan (qurum) tərəfindən təsdiq olunmuş avadanlıq, cihaz, qurğu və təhsil fəaliyyəti məqsədilə digər vasitələrin müvafiq orqanın (qurumun) təsdiqedici sənədi əsasında dövlət ümumi təhsil müəssisələri tərəfindən idxalının 2 il müddətinə gömrük rüsumundan azad edilməsini nəzərdə tutur.

"Qrant haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) Azərbaycan Respublikasının adından və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) adından aldığı qrantların reyestrinin aparılması qaydasını müəyyən edir.

İclasda müzakirəyə çıxarılmış Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi barədə, "Notariat haqqında" qanunda dəyişiklik edilməsi barədə birinci oxunuşda olan qanun layihələrinin bir-biri ilə əlaqəli olduğu bildirilib. Komitə sədri onlar haqqında məlumat verərkən dəyişikliklərə görə daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı ilə bağlı yalnız notariusa müraciətin yetərli olmasından danışıb, qanun layihələrinin ölkədə elektron xidmətlərin inkişafı və dövlət xidmətlərinin vətəndaşlarımıza "bir pəncərə" sistemi ilə daha rahat və daha şəffaf şəkildə göstərilməsi baxımından əhəmiyyətini vurğulayıb.

"Büdcə sistemi haqqında", "İşsizlikdən sığorta haqqında" və "Hesablama Palatası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş)"Büdcə sistemi haqqında" qanunda dəyişiklik edilməsi ilə bağlı 2021-ci il 24 dekabr tarixli 440-VIQD nömrəli Qanunun tətbiqini təmin etmək məqsədilə hazırlanıb.

Birinci oxunuşda komitənin müzakirəsinə çıxarılan "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə iki qanun layihəsinin birində şəhər (rayon) ərazisində baytarlıq yükünün daşınması üçün tələb olunan baytarlıq arayışının alınması ilə bağlı dövlət rüsumunun ləğv edilməsi, digərində isə "Media haqqında" qanunun tətbiqini təmin etmək üçün termin əvəzlənməsi təklif olunub.

İclasda son olaraq "İslam Ölkələrinin Standartlar və Metrologiya İnstitutunun (SMİC) Əsasnaməsi"nin təsdiq edilməsi haqqında və "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihələri müzakirə olunub.

Müzakirələrin sonunda gündəlikdəki bütün qanun layihələri Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə edilib.

❖ ❖ ❖

Sentyabrın 23-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin 2022-ci ilin payız sessiyasında ilk iclası keçirilib. İclasda sentyabrın 12-dən 13-nə keçən gecə Azərbaycanla sərhəddə Ermənistan tərəfindən törədilən təxribatın qarşısı alınarkən qəhrəmancasına döyüşərək şəhid olmuş hərbi qulluqçularımızın əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Komitə sədri Səməd Seyidov bildirib ki, Ermənistan tərəfindən Azərbaycana qarşı düşünülmüş şəkildə törədilmiş təxribatlar hələ də davam edir. Bu təxribatlar həm sərhəddə, həm beynəlxalq səviyyədə aparılır. Ölkəmizin xaricdəki diplomatik nümayəndəliklərinə hücumlar edilir, habelə beynəlxalq təşkilatlarda ölkəmizə qarşı müxtəlif bəyanatlar səsləndirilir. O, Ermənistan revanşist qüvvələrinin fəallaşmasını onların sülh müqaviləsini imzalamaqdan boyun qaçırmaq, vəziyyəti gərgin saxlamaq və Azərbaycanın iradəsinə tabe olmamaq istəyindən irəli gəldiyini söyləyib. Komitə sədri Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasətin regionda sülhü, təhlükəsizliyi, tərəqqini təmin etməyə yönəldiyini vurğulayıb.

Komitə üzvləri Sahib Alıyev, Asim Mollazadə, Nəsib Məhəməliyev, Ramil Həsən və digər deputatlar son dövrdə regionda və dünyada baş verən hadisələr barədə fikirlərini açıqladıqdan sonra iclasın gündəliyinə daxil edilmiş 19 məsələyə baxılıb. Komitə sədri Səməd Seyidov əvvəlcə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin 2022-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində gördüyü işlər barədə hesabatı təqdim edib. Bildirilib ki, bu müddətdə komitənin 12 iclası keçirilib, 19 məsələyə baxılıb.

Sonra Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin 2022-ci ilin payız sessiyası üçün iş planının layihəsi barədə məlumat verilib. Bildirilib ki, bu sessiyada qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim edilən qanun layihələrinə, habelə beynəlxalq və dövlətlərarası müqavilələrin təsdiqinə, icrasına və ləğv edilməsinə dair sənədlərə baxılacaq. Bu müddətdə Milli Məclisin parlamentlərarası əlaqələrinin daha da inkişaf etdirilməsi, xarici ölkələrdə yaşayan soydaşlarımızla və xaricdə fəaliyyət göstərən Azərbaycan təşkilatları ilə əlaqələrin möhkəmləndirilməsi, ölkəmizin xarici siyasət strategiyasına rəy və tövsiyələrin verilməsi nəzərdə tutulub. Bununla yanaşı, sessiya ərzində Azərbaycan həqiqətlərinin, o cümlədən "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyası çərçivəsində Xocalı soyqırımı haqqında məlumatların dünya ictimaiyyətinə çatdırılması ilə bağlı məqsədyönlü fəaliyyətin davam etdirilməsi, Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişafı istiqamətində lazımi addımların atılması və bir sıra digər tədbirlərin həyata keçirilməsi planlaşdırılır.

İclasda Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin 2022-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində gördüyü işlər qənaətbəxş hesab olunub, komitənin 2022-ci ilin payız sessiyası üçün iş planının layihəsi təsdiq edilib.

Komitə sədri "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, layihə Azərbaycan Prezidentinin 2020-ci il 27 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın 4.2-ci bəndinə əsasən hazırlanıb."Milli Fəaliyyət Planı"na əsasən, dövlət xidmətinin göstərilməsi üçün zəruri olan sənəd və ya məlumat digər dövlət qurumunda mövcud olduğu halda, həmin sənədin və ya məlumatın vətəndaşdan tələb edilmədən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan alınmasının təmin edilməsi üçün bu prinsipin sahəvi normativ hüquqi aktlarda təsbit edilməsi, habelə bu prinsipə əsaslanan elektron xidmətlərin sayının artırılması təmin edilməlidir.

Qanun layihəsinin qəbulu vətəndaşların sənəd və ya məlumatın toplanması və təqdim edilməsi ilə bağlı problemlərinin aradan qaldırılmasına və vaxt itkisinin azaldılmasına, vətəndaş məmnunluğunun artırılmasına, habelə ölkədə Elektron Hökumət İnformasiya Sisteminin funksionallığının daha da yüksəldilməsinə və qurumlararası elektron inteqrasiyanın güclənməsinə xidmət edəcək.

Daha sonra iclasda bir sıra beynəlxalq sənədlərin - konvensiya, müqavilə, anlaşma memorandumu, əsasnamə və sazişlərin təsdiq edilməsi haqqında qanun layihələrinə baxılıb.

Komitə sədri Səməd Seyidov bir sıra konvesiya və sazişlərin təsdiqi, Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələrinin mahiyyəti haqqında məlumat verib.

İclasın sonunda gündəliyə daxil edilən bütün qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Altı erməni hərbçisinin meyiti qarşı tərəfə təhvil verilib

Ermənistan silahlı qüvvələrinin 2022-ci il sentyabrın 12-14-də Azərbaycan-Ermənistan sərhədində törətdikləri genişmiqyaslı təxribatlara qarşı Azərbaycan Ordusunun əks-hücum əməliyyatı nəticəsində həlak olaraq ərazidə qalmış erməni hərbi qulluqçularına aid meyitlərin axtarışı həyata keçirilir.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından AZƏRTAC-a bildirilib ki, Azərbaycan sentyabrın 23-də Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəsilə ərazidə tapılmış daha 6 erməni hərbçisinin meyitini Ermənistan tərəfinə təhvil verib. Meyitlərə Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun iştirakı ilə baxış keçirilib və onların üzərində hər hansı zorakılıq əlamətlərinin olması müəyyən olunmayıb.

Cəsədlərin ərazidə axtarışı davam etdirilir.

# Tacikistanın nümayəndə heyəti Heydər Əliyev adına Hərbi İnstitutu ziyarət edib

Azərbaycanda səfərdə olan Tacikistan Respublikası Müdafiə Nazirliyinin Hərbi Kadrların Hazırlanması İdarəsinin nümayəndə heyəti Heydər Əliyev adına Hərbi İnstitutu ziyarət edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qonaqlara hərbi institutun tarixi və fəaliyyəti barədə brifinq təqdim edildikdən sonra hərbi təhsil sisteminin inkişaf perspektivlərinə dair qarşılıqlı fikir mübadiləsi aparılıb. Sonra qonaqlar Tacikistan Respublikasından Heydər Əliyev adına Hərbi İnstitutda təhsil alan kursantlarla görüşüb, onlarla söhbət aparıb və təhsilləri ilə maraqlanıblar.

Səfər proqramı çərçivəsində nümayəndə heyəti təhsil müəssisəsinin ərazisi, tədris korpusları, maddi-texniki bazası, muzeyi ilə tanış olub, eləcə də tədris prosesini izləyiblər.

Sonda qarşılıqlı hədiyyələr təqdim edilib.

# Bakıda NATO kursu keçiriləcək

Ölkəmizdə keçiriləcək NATO-nun "Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) Məlumat Bazası" kursunun (OCC E&F Database Training Course) beynəlxalq təlimatçıları Bakıya gəlib.



Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, hazırlıq mərhələsində yerli və xarici mütəxəssislərdən ibarət təlimatçılar kursun mövzularını və qarşıya qoyulan məqsədləri dəqiqləşdirir.

Kursun keçirilməsində əsas məqsəd NATO qərargahlarında və tərəfdaş ölkələrdə ƏİK proqramına cəlb olunan hərbi qulluqçulara ƏİK tədbirlərinin planlaşdırılması və icrası mərhələsində məlumat bazasının tətbiqinin öyrədilməsidir. Qeyd edək ki, ölkəmizdə ikinci dəfə keçiriləcək kurs sentyabrın 26-da başlayacaq.



# Hərbdən sülhə

## Ədaləti güc yolu ilə bərqərar edən İlham Əliyev indi də bölgədə sülhün yeganə təminatçısıdır

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyevin sentyabrın 22-də Laçın şəhərində üçrəngli bayrağımızı qürurla dalğalandırdığı zaman vurğuladığı kimi, şanlı Vətən müharibəsinin parlaq zəfərlə başa çatmasından dərhal sonra Azərbaycan Ermənistana iki ölkə arasında münasibətlərin normallaşdırılması, sülhə nail olunması üçün təkmil sülh modeli təklif edib. Bu istiqamətdə ölkəmiz reallıqlara əsaslanan və regionda təhlükəsizliyin, əməkdaşlığın, rifahın təmin edilməsinə yönəlik təşəbbüslərlə daim çıxış edir.

### İkinci Qarabağ müharibəsi olmaya da bilərdi

Azərbaycan döyüş meydanının qalib tərəfi olmağına baxmayaraq, dünya hərb tarixində də misli görünməmiş humanizm, sülhpərvər davranış nümayiş etdirərək, acınacaqlı vəziyyətə düşmüş, hərbi, sosial, iqtisadi potensialı tükənmiş, uçuruma yuvarlanmış düşməninə sülh təklif edir. Ölkəmiz regionda hərbin gücü ilə nail olduğu ədaləti sülh yolu ilə daha da möhkəmləndirməyə, davamlı etməyə çalışır, barışıqdan yana olduğunu göstərir.

Hətta Azərbaycan Prezidentinin bəyan etdiyi kimi, əgər Ermənistan öz xoşu ilə torpaqlarımızdan çıxsaydı, İkinci Qarabağ müharibəsi olmaya da bilərdi.

Baxmayaraq ki, mənfur düşmən əsrlərlə tarixi torpaqlarımıza iddia edib, xalqımıza qarşı milli düşmənçilik nümayiş etdirərək soyqırımlarına, terrorlara əl atıb, faciələrə səbəb olub. Torpaqlarımızı 30 il müddətində işğal altında saxlayan vandal ermənilər bu illər ərzində vəhşiliklər törədərək bütün yaşayış yerlərini dağıdıblar, Azərbaycan xalqına məxsus tarixi, dini, mədəni abidələri Yer üzündən silməyə çalışıblar. Erməni barbarları həmin ərazilərdə ekoloji terrora əl ataraq bulaqlarımızı, çaylarımızı qurudub, meşələrimizi yandırıb, flora və faunamızı məhv ediblər.

Eyni zamanda bir gün mütləq bu torpaqların həqiqi sahiblərinin qayıdacağını da gün kimi anlayaraq, insanlıq əleyhinə daha bir cinayətə əl atıblar. İşğal altında saxladıqları Qarabağda və ətraf rayonlarda hər daşın, qayanın altına, evlərə, həyətlərə, yollara milyonlarla piyada və tank əleyhinə mina basdırıblar. Erməni terrorçularının bu cinayət əməlinə görə müharibədən sonra 240-dan çox Azərbaycan vətəndaşı mina partlayışı nəticəsində ya həlak olub, ya da ağır yaralanıb. Onların arasında KİV əməkdaşları da var.

Terrorçu ermənilər bu cinayət əməllərini müharibədən sonra da davam etdirərək ərazilərimizdə tank və piyada əleyhinə minalar basdırıblar. Təkcə Laçın rayonu ərazisinə 2021-ci ildə 1400-dən çox mina döşəyiblər. Həmin minalar isə Vətən müharibəsindən sonra 2021-ci ildə Ermənistanda istehsal olunan minalardır.

Halbuki beynəlxalq humanitar hüquqa əsasən, 1997-ci ildə qəbul edilmiş Ottava müqaviləsi piyada əleyhinə minaların istehsal edilməsi, saxlanılması, daşınması və istifadəsini qadağan edir.

Hər zaman sülhün tərəfdarı olan Azərbaycan isə bunlara baxmayaraq, xalqımızın milli-mənəvi dəyərlərindən irəli gələn mərhəmətlilik, humanizm kimi prinsiplərindən əl çəkməyərək barışı təbliğ edir, mənfur düşməninə insanlıq dərsi verir.

Lakin hələ də Ermənistan 10 noyabrda imzaladığı kapitulyasiya aktına əsasən, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyib. Məsələn, üçtərəfli Bəyanatda da təsnif olunduğu kimi, erməni silahlı qüvvələri Qarabağdan çıxarılmalı idi, amma ötən müddətdə buna əməl etməyib. Ermənistan Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasının birləşməsini təmin edən dəhliz verməli idi ki, bu məsələ ilə bağlı da heç bir addım atmayıb. Eləcə də sərhədlərin delimitasiya prosesinə sözdə start verilsə də, bu istiqamətdə bu ölkə əməli iş görməkdən yayınmağa çalışır.

### Düşməndən dost olmaz

Sülhə maneçilik törədən davranışlar Ermənistanın hələ də işğalçılıq siyasətindən əl çəkmədiyini, Vətən müharibəsində qazandığımız parlaq zəfərlə barışmayaraq revanşist hisslərlə yaşadığını göstərir. Lakin o da var ki, işğalçılar hər dəfə ölkəmizə qarşı təxribatlara əl atdıqda Azərbaycan Ordusunun qəhrəman oğulları tərəfindən layiqincə yerlərinə otuzdurulublar.

Bu il avqustun 3-də Ermənistanın növbəti təxribatına cavab olaraq "Qisas" əməliyyatının keçirilməsi və ordumuzun Qırxqız yüksəkliyini, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəklikləri nəzarətə götürməsi əyani nümunədir.

Həmçinin sentyabrın 12-si gecəsindən başlayaraq Ermənistanın Azərbaycana qarşı daha bir təxribatı zamanı rəşadətli ordumuzun düşmənin külünü göyə sovurması mənfurlara ağır zərbə oldu.

Heç bir vəchlə biabırçı məğlubiyyətini həzm edə bilməyən Ermənistan bu gün də təxribatçı əməllərini davam etdirir. Buna misal olaraq Müdafiə Nazirliyinin ötən gün yaydığı məlumata diqqət yetirək: "Sentyabrın 22-si saat 23:45-dən sentyabrın 23-ü saat 08:30-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuzqala rayonunun Çinarlı, Basarkeçər rayonunun Yuxarı Şorca, Günəşli və Zərkənd yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən ordumuzun Tovuz rayonunun Koxanəbi, Kəlbəcər rayonunun Keşdək və Barmaqbinə, Daşkəsən rayonunun Təzəkənd yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub".

### Bizi heç kim və heç nə dayandıra bilməz

Amma revanşist hisslərə qapılaraq ağılsız addımlar atan işğalçı ölkə hər nə qədər atılıb düşsə də, təxribatlar törətsə də, bu yolla özünə ziyandan başqa heç nə qazandırmayacaq, əksinə, daim Azərbaycanın "dəmir yumruğ"unu başı üzərində hiss edəcək. Qalib Azərbaycan hər fürsətdə sülhə maneçilik törədən davranışlar sərgiləyən işğalçı Ermənistanı diktə etdiyi bütün şərtlərə boyun əyməyə və sülh bağlamağa məcbur edəcək.

Çünki bu məsələdə haqq da, ədalət də, güc də Azərbaycanın tərəfindədir. Zamanında kimlərəsə güvənib, hansısa təşkilatlara, ölkələrə bel bağlayıb azğınlıq edən işğalçı Ermənistanın özü də bunu yaxşı bilir ki, daha o əyyamlar geridə qalıb və Azərbaycanın hərbi və diplomatik gücü qarşısında bütün qüvvələr zəifdir, məğlubdur.

Laçın şəhərində çıxışı zamanı Prezident İlham Əliyev bildirdi ki, əgər düşmən bizə qarşı təxribat törədəcəksə, layiqli cavabını verəcəyik: "Bu gün Ermənistan yaxşı fikirləşməlidir. Bizimlə heç kim ultimatum dili ilə danışa bilməz və heç kimə də bel bağlamasınlar. Mən bir daha demək istəyirəm ki, bizi heç kim və heç nə dayandıra bilməz. Biz haqqın, ədalətin, beynəlxalq hüququn tərəfdarıyıq və öz ərazi bütövlüyümüzü qoruyuruq, qorumuşuq, bərpa etmişik".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Çırağımız Laçında əbədi yanacaq

*Əvvəli 1-ci səh.*

Artıq iki ilə yaxındır ki, işğaldan azad edilmiş ərazilərdə Ali Baş Komandan bayrağımızı böyük qürur və ləyaqət hissi ilə özü ucaldır. Bunun mənası o deməkdir ki, bir qarış torpaq belə işğal altında qalmayacaq, bayrağımız sülhün, azadlığımızın və qələbəmizin rəmzi kimi azad edilmiş bütün torpaqlarımızın səmalarında dalğalanacaq.

44 günlük Vətən müharibəsinin ikinci ildönümü ərəfəsində bayrağımız Laçın şəhərində yüksəldildi. Bu bayraq qələbəmizin səmalarda sayrışan işartıları və sülhün rəmzi kimi bərq vurur.

Hər göyə yüksələn bayrağın arxasında öyünməyə imkan verən bir keçmiş, Azərbaycan əsgərinin düşməni çökdürən döyüşləri dayanır. Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə bayraqlarımız sıralandıqca böyük quruculuq və bərpa işlərinə start verilir. Şuşada, Füzulidə, Ağdamda, Zəngilanda, Qubadlıda və digər rayonlarımızda ümumi dəyəri milyardlarla ölçülən böyük quruculuq işləri aparılır. Bu müqəddəs işə həm də bizə dost və qardaş ölkələrin məşhur şirkətləri öz töhfələrini verir.

Sentyabrın 21-də Laçında dövlət başçısı "Laçın" Qovşaq Yarımstansiyasının təməlini qoydu, xeyir-duasını verdi. Qeyd edək ki, 110/35/10 kV-luq bu qovşaq yarımstansiyası "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən inşa ediləcək. Yarımstansiyanın rayon mərkəzində tikilməsi həm Laçın şəhərini, həm də yaxın ətrafdakı kəndləri fasiləsiz elektrik enerjisi ilə təmin etməyə imkan yaradacaq. Şəhərin cənub girişində inşa olunacaq bu yarımstansiya Azərbaycanın ümumi enerji sisteminə qoşulacaq, Laçın rayonunun fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsində aparıcı rol oynacaq. Onu da xatırladaq ki, bu rəqəmsal yarımstansiyanın layihəsinin Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırılması onun xarici görünüşünün yeni Laçının digər binaları ilə vəhdət təşkil edəcəyindən xəbər verir.

Ümumi gücü 80 meqavatamper olacaq yarımstansiya qovşaq funksiyasını daşıyacaq. Tədbirdə dövlət başçısına məlumat verildi ki, Füzulidəki "Şükürbəyli" yarımstansiyasından çıxaraq "Cəbrayıl", "Zəngilan", "Qubadlı" yarımstansiyalarına, oradan isə "Güləbird" Su-Elektrik Stansiyası ilə əlaqələnən 110 kV-luq ikidövrəli xətt, "Daşkəsən" yarımstansiyasından "Kəlbəcər" və "Qorçu" yarımstansiyalarına çəkilən 110 kV-luq ikidövrəli xətt, həmçinin "Şükürbəyli" yarımstansiyasından "Füzuli" və "Şuşa" yarımstansiyalarına gətirilən 110 kV-luq ikidövrəli xətt "Laçın" şəhər yarımstansiyası ilə əlaqələndiriləcək.

Beləliklə, Laçında ucaldılan bayraq yalnız müqəddəs qələbəmizin rəmzi kimi yox, həm də böyük işlərə verilən dəstək, dayaq kimi qiymətləndirilməlidir. Bu gün adını çəkmək belə istəmədiyimiz bədnam qonşu dövlətdə çevrilişlərə, xaosa, qarşıdurmalara cəhdlərin sayı-hesabı yoxdur. Biz xalq kimi inamla aydın məqsədlərimizə doğru Azərbaycan Prezidentinin rəhbərliyi altında addımladıqca, rəzil qonşularımız bir o qədər sürətlə mənasız düşmənçiliklərinin bataqlıqlarına yuvarlanırlar. Bunlar həm bizimlə, həm də bir-birlərilə vəhşi düşmənçilikdə ölümə getdiklərini belə anlamaq imkanında deyillər. Biz 44 günlük Vətən müharibəsindən sonra Qarabağda və Şərqi Zəngəzurda böyük quruculuq işlərinə rəvac vermişik. Yaxın zamanlarda tikilən yarımstansiyaların və yeni çəkilən 400 kilometrdən çox yüksəkgərginlikli ikidövrəli xətlərin dairəvi elektrik təchizatı yaradılacaq. Bu da ona imkan verəcək ki, işğaldan azad olunmuş ərazilərdə hətta yüksəkgərginlikli xətlərdən birində qəza baş versə belə, dərhal digər istiqamətdən gələn xətt vasitəsilə gərginliyin verilməsi bərpa edilsin. Yəni enerji təchizatı sistemində istənilən nasazlıq işıq sürəti ilə bərpa olunsun. Bununla da Qarabağda və Şərqi Zəngəzurda enerji təchizatında qəzaya görə və ya başqa səbəbdən fasilələrə yol verilməyəcək.

Azərbaycanda elektrik enerjisi xətləri, yarımstansiyalar və onların arasında yaradılan əlaqə dünyanın müasir sistemləri əsasında qurulur. Strateji əhəmiyyətə malik Laçın yarımstansiyasında da müasir mikroprosessor tipli rəqəmsal idarəetmə, mühafizə və avtomatika sistemləri, sabit və dəyişən cərəyan qurğuları, ən müasir avadanlıqlardan ibarət 110 kV-luq açıq paylayıcı qurğu yaradılacaq, yarımstansiyanın iş rejiminə real zamanda nəzarət olunması məqsədilə yerli mikro-SCADA dispetçer idarəetmə sistemi qurulacaq. Yanğın təhlükəsizliyinin təmin olunması məqsədilə bütün vacib addımlar atılacaq.

Aydın görünən odur ki, düşmən başını itirdikcə, havadar axtarışında dünyanı ələk-vələk etdikcə biz erməni faşistlərinin qoyduqları xarabalıqları cənnətə döndəririk. Dövlət başçısı Azərbaycan bayrağını Laçında qaldırdıqdan sonra çıxışında çox vacib məqamlara toxundu: "Biz şəhidlərimizin canı, qanı bahasına, qəhrəman əsgər və zabitlərimizin fədakarlığı sayəsində bu gün bu torpaqlardayıq. Heç kim bu torpaqları bizə bağışlamayıb, heç kim bu torpaqları bizə danışıqlar yolu ilə qaytarmayıb. Beynəlxalq təşkilatlar, o cümlədən BMT, onun Təhlükəsizlik Şurası, ATƏT işğalçı dövləti məcbur edib buradan çıxarmalı idi. Ermənistana qarşı sanksiyalar tətbiq edilməli idi. Bunların heç biri görülmədi. Əksinə, bu işğalı əbədiləşdirmək üçün Ermənistan, dünya erməniliyi və onların xaricdəki havadarları birləşərək bu çirkin niyyəti həyata keçirmək istəyirdilər. Mən isə həmişə deyirdim ki, Azərbaycan xalqı buna heç vaxt razı olmayacaq. Həmişə deyirdim ki, məsələ sülh yolu ilə həll olunmasa, bunu hərb yolu ilə həll edəcəyik və etdik. Cəmi 44 gün ərzində Ermənistan ordusunu darmadağın etdik. Alınmaz qala sayılan Şuşanı azad etdik. Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Hadrutu, Xocavəndi döyüş meydanında azad etdik. Düşmən diz çökdü və Laçını, Kəlbəcəri, Ağdamı tərk etməyə məcbur oldu. Bu gün Laçın şəhərində olarkən haqlı olaraq qürur hissi keçirirəm ki, qədim Azərbaycan torpağında bizim üçrəngli bayrağımız dalğalanır".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Şərqi Zəngəzurda daha bir məktəb tikintisinə başlanılacaq

**Azərbaycan Prezidenti İlham Əliyevin sentyabrın 21-də işğaldan azad edilmiş Laçın rayonuna səfərindən sonra bölgədə tikinti, quruculuq və bərpa işlərinə start verilmişdir.**

Dövlət başçısının 22 sentyabr 2022-ci il tarixli sərəncamı ilə Laçın şəhəri 2 nömrəli tam orta məktəb binasının layihələndirilməsi, əsaslı təmiri və bərpası məqsədilə dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə ilkin olaraq 800 min manat, habelə bundan əvvəl isə Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunun işğaldan azad edilmiş Zabux və Sus kəndlərinin layihələndirilməsi və tikinti işlərinin həyata keçirilməsi məqsədilə 2022-ci il dövlət büdcəsindən respublika Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə 800 min manat ayrılmışdır.

Prezident İlham Əliyev sentyabrın 21-də Laçın şəhərində çıxış edərkən bildirmişdir: "Mən avqustun 26-dan dərhal sonra buraya bir neçə qrup göndərmişəm, bütün yaşayış fondunun təhlili, uçotu aparılacaqdır, dəymiş ziyan hesablanacaqdır. Eyni zamanda təxirəsalınmaz işlərin görülməsi üçün təkliflər hazırlanacaqdır. Laçın şəhəri, Zabux kəndi, Sus kəndi ilk növbədə yenidən qurulacaq. Əminəm ki, biz buna tez bir zamanda nail olacağıq. Çünki Vətən müharibəsindən sonra bu günə qədər keçən dövr ərzində gördüyümüz işlər - genişmiqyaslı quruculuq və bərpa işləri göstərir ki, biz öz diyarımızı, Vətənimizi öz hesabımıza bərpa edirik və edəcəyik".

Laçın rayonu respublikamızın cənub-qərbində, dağlıq ərazidə yerləşir. Qərbdən Ermənistanla həmsərhəddir. Sahəsi 1840 kvadratkilometr, əhalisi 1 yanvar 2020-ci il tarixə 78,6 min nəfərdir. 18 may 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş Laçın rayonu Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və şanlı Azərbaycan Ordusunun şücaəti sayəsində 1 dekabr 2020-ci ildə işğaldan azad olunmuşdur. 2022-ci il avqustun 26-da Rusiya sülhməramlı kontingentinin nəzarətində olan və ermənilərin qanunsuz məskunlaşdıqları Laçın şəhəri, Zabux və Sus kəndləri Azərbaycana təhvil verilib.



Laçın 30 ilə yaxın erməni işğalı altında olanda Ermənistan silahlı birləşmələri dəyəri milyardlarla ölçülən yeraltı və yerüstü sərvətlərimizi talamışdır. Min illərin, əsrlərin yadigarı olan maddi mədəniyyət abidələrimizi məhv etmişdilər.

Daşı daş üstə qalmayan Laçının ərazisində maddi mədəniyyət nümunələrinin hansı vəziyyətdə olması bu yerlərə vaxtaşırı səfər edən beynəlxalq faktaraşdırıcı missiyanın üzvlərinə də məlumdur. Tarixin yaddaşı olan abidələr saxtalaşdırılıb, erməniləşdirilib. Bölgənin mədəni irsini hədəf seçən ermənilər maddi mədəniyyət abidələrimizi tamamilə və qəddarlıqla məhv etmişlər. Rayonun Cicimli, Güləbird, Soltanlar, Zeyvə, Malıbəy, Yənqıça, Bülövlük, Araflı, Əliqululu, Malxələf, Hüsülü, Kosalar, Seyidlər, Pircahan, Kürdhacı və digər kəndlərdəki tarixi abidələr - 12 qoç, 28 at fiquru, 36 müxtəlif süjetli yazılar və rəsmlər, sal daş, müxtəlif dövrlərdə ərəb əlifbası ilə yazılmış, bir-birinə bənzəməyən sənət rəmzləri həkk edilmiş qəbirüstü daşlar, məşhur Sarı Aşığın sevgilisi Yaxşının məzarı məhv edilib.

Memarlıq abidələrindən Hoçaz kəndindəki mağara-məbəd (V əsr), Cicimlidəki Məlik Əjdər türbəsi (XIV əsr), adsız türbə (XVII-XVIII əsrlər), Şeyx Əhməd türbəsi (XIX əsr), Qarıqışlaq kəndindəki məscid (1718-ci il), Hüsülü kəndində Həmzə Sultan sarayı (1761-ci il), Həkəri çayı üzərindəki körpü (XVIII əsr), Ağoğlan çayı üzərindəki məbəd (XIX əsr), Güləbirddəki türbə təcavüzə məruz qalaraq taleyi saxtalaşdırılıb.

Təkcə Laçında yox, ümumiyyətlə, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı nəticəsində 12 muzey və 6 rəsm qalereyası, tarixi əhəmiyyətli 9 saray qarət edilərək yandırılmışdır. Nadir əhəmiyyətə malik 40 min muzey sərvəti və eksponat talan olunmuş, 44 məbəd və 18 məscid təhqir edilmişdir. Dağıdılan və yandırılan 927 kitabxanada 4 milyon 600 min nüsxə kitab və nadir incilərdən sayılan əlyazmaların külü göyə sovrulmuşdur. Talan və məhv edilmiş sərvətlər nəinki Azərbaycanın, həm də dünya sivilizasiyasının misilsiz mədəniyyət nümunələri hesab edilirdi.

Dövlət başçımız Laçın şəhərində Azərbaycan bayrağını ucaldarkən çıxışında deyib: "Şəhərin vaxtilə - 1980-ci illərdə tərtib edilmiş baş planı vardır. Bu, indi təhlil edilir, əlavələr olunacaqdır və Laçın şəhərini biz bərpa edəcəyik. Ümid edirəm ki, laçınlıların birinci qrupu Laçın şəhərinə gələn ilin sonuna qədər qayıda bilərlər. Mən buna ümid edirəm və əlimdən gələni edəcəyəm ki, biz buna nail olaq, tezliklə Laçın şəhərini bərpa edək". Prezident İlham Əliyev çıxışı zamanı onu da bildirib ki, artıq Laçın şəhərinin bərpa edilməsinin vaxtı çatıb. Dövlət başçısı həmçinin əraziyə dəymiş zərərin hesablanacağını da söyləyib.

Görünən odur ki, işğaldan azad edilmiş ərazilərdə bütün infrastrukturun, ümumilikdə şəhər, qəsəbə və kəndlərimizin modern əsaslarla yenidən qurulması yaxın gələcəkdə Qarabağın cənnətə çevriləcəyinə əminlik yaradır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Dövlət sərhədi istiqamətində mövqelərimiz atəşə tutulub

Sentyabrın 22-si saat 23:45-dən sentyabrın 23-ü saat 08:30-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuzqala rayonunun Çinarlı, Basarkeçər rayonunun Yuxarı Şorca, Günəşli və Zərkənd yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən ordumuzun Tovuz rayonunun Koxanəbi, Kəlbəcər rayonunun Keşdək və Barmaqbinə, Daşkəsən rayonunun Təzəkənd yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.



# Rəcəb Tayyib ƏRDOĞAN: "Türkiyə beynəlxalq hüquq çərçivəsində prinsipial və ədalətli mövqe tutur"

**BMT-nin 77-ci Baş Assambleyasında çıxış edən Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin terrora qarşı hər cür tədbiri görməyə qadir olduğunu və nə lazımdırsa, onu etməkdən çəkinməyəcəyini vurğulayıb.**



Türkiyə lideri BMT-nin daha ədalətli dünya nizamı üçün həll yolları yarada biləcək ortaq iradəni bir araya gətirən təşkilat olaraq yenidən qurulmasının vacibliyini vurğulayıb. O bildirib ki, Təhlükəsizlik Şurasının daha effektiv, demokratik, şəffaf və hesabatlı struktura çevrilməsi rifah və ədalət axtarışında mühüm dönüş nöqtəsi olacaq.

Suriyada davamlı həll yolunun tapılmasının vacibliyini vurğulayan Ərdoğan bildirib ki, bu, həllin tapılmaması bölgədəki etibar və sabitliyi, həmçinin Suriyanın ərazi bütövlüyünü daha da təhdid edir.

Prezident həmçinin deyib ki, Türkiyənin təhlükəsizlik qüvvələrinə və mülki şəxslərə qarşı terror aktları törədən PKK və onun törəmələrinə rəsmi Ankara biganə qala bilməz. "Bu terror təşkilatını ad dəyişikliyi kimi hiylələrlə qanuniləşdirməyə çalışanları terrorçuları silahlandırmaq və dəstəkləməkdən əl çəkməyə dəvət edirik"-, deyən Ərdoğan vurğulayıb.

Türkiyədə bölgələrində 100 min briket evi tikdiklərini və 1 milyon suriyalının öz torpaqlarında yaşamasını təmin edəcək 200 min evin tikintisi üçün hazırlıqlara başlanıldığını bildirən Rəcəb Tayyib Ərdoğan 13 ayrı mərkəzdə və kənd yerlərində təhlükəsiz zonalarda inşa ediləcək bu layihənin reallaşması üçün beynəlxalq dəstəyə ehtiyac olduğunu vurğulayıb: "Qaçqın böhranını özlərinə daha yaxşı gələcək təmin etmək üçün yola çıxan günahsız insanların qayıqlarını batırıb onları ölümə tərk etməklə, sərhədlərə divar çəkməklə, insanları həbs düşərgələrinə salmaqla həll etmək olmaz".

Rusiya-Ukrayna münaqişəsinə də toxunan Türkiyə Prezidenti deyib ki, epidemiyadan ağır zərbə alan qlobal iqtisadiyyat bu münaqişə ilə yeni şok dalğasına məruz qalıb. Müharibə ərzaq təhlükəsizliyini də riskə atıb: "Maddi və texnoloji imkanların ən yüksək həddə çatdığı XXI əsrdə dünya əhalisinin beşdə birinin hələ də aclıqdan əziyyət çəkdiyini izah etmək mümkün deyil".

ABŞ-a səfərinin sonunda Ərdoğan Nyu Yorkdakı Türk Evində jurnalistlərin suallarını cavablandırıb.

Türkiyə Prezidenti bildirib ki, Rusiya ilə Ukrayna arasında sülhün bərqərar olması istiqamətində səylər davam edir. Türkiyə bu istiqamətdə, beynəlxalq hüquq çərçivəsində prinsipial və ədalətli mövqe tutub. Qardaş ölkə əvvəldən dialoq və diplomatiyanın gücünə inanıb və bunu sübut etməyə çalışıb.

Rəcəb Tayyib Ərdoğan hesab edir ki, başda BMT olmaqla, eyni təşəbbüs sərgilənməli və problemin həlli üçün daha çox səy göstərilməlidir. Lakin təəssüf ki, BMT nə münaqişəyə son qoya, nə də yaranan enerji və ərzaq böhranlarını həll edə bilir.

Türkiyə liderinin fikirincə, taxıl dəhlizi mövzusunda səy göstərməsi BMT-yə etibarı bir az artırıb. Amma bu təşkilat münaqişənin bitməsi üçün daha çox səy göstərməlidir: "Bu, təkcə mənim deyil, bütün dünya ölkələri başçılarının birgə çalışmaları ilə həyata keçirilməli prosesdir. Hər kəs bu kanalı gücləndirməlidir".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Bakı Şəhər İcra Hakimiyyətində şəhid ailələri ilə görüş olub





Sentyabrın 23-də Bakı Şəhər İcra Hakimiyyətində (BŞİH) şəhid ailələri ilə görüş keçirilib.

BŞİH-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşün əvvəlində Vətən uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib, Vətən müharibəsində şanlı qələbəmizə və şəhidlərimizə həsr edilən videoçarx nümayiş olunub.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov qonaqları salamlayaraq bildirib ki, 2 il əvvəl sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsində ölkəmiz düşmən üzərində şanlı qələbə qazandı. Azərbaycan Ordusu əks-hücuma keçərək işğal altındakı torpaqlarımızı azad etdi. Son 200 il ərzində ilk dəfə olaraq əzəli düşmən üzərində parlaq qələbə əldə edildi.

Bu il avqustun 3-də və sentyabrın 12-də sərhəd boyunca Daşkəsən, Kəlbəcər, Laçın, Zəngilan istiqamətlərində erməni silahlı qüvvələrinin növbəti təxribatlarına cavab olaraq həyata keçirilən "Qisas" və "Qətiyyətli cavab" əməliyyatları nəticəsində düşmənə ağır zərbələr endirildi, onun böyük sayda canlı qüvvə və hərbi texnikaları məhv edildi.

Vətən müharibəsi və sonrakı dövr ərzində ölkə başçısı, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev özünü dahi ictimai-siyasi xadimdən əlavə, həm də bacarıqlı sərkərdə kimi göstərdi. Onun rəhbərliyi ilə düşmən üzərində böyük zəfər qazanıldı. Qazanılan bu qələbə dövlətimizin başçısı İlham Əliyevin dahi intellekti və müdrik siyasəti sayəsində əldə olundu.

Bildirildi ki, qazanılan qələbədə ordumuzun əsgər və zabitlərinin qəhrəmanlığı, şəhid və qazilərimizin şücaəti xüsusi qeyd edilməlidir. "Biz döyüşlərdə şəhid olmuş vətən övladlarımızın ruhu qarşısında baş əyir, onlara Ulu Tanrıdan rəhmət diləyirik. Şəhid ailələri ilə yanaşı, qanlı döyüşlərdə yaralanan qazilərimiz də daima dövlət qayğısı ilə əhatə olunub. Həmçinin ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva hər zaman şəhid ailələri və qazilərin yanındadır və onların problemlərinin həlli istiqamətində böyük işlər görür", - deyə Eldar Əzizov qeyd edib.

Açıq dialoq şəklində keçirilən görüşdə şəhid ailələrinin üzvləri dinlənilib, onların sual və təklifləri, ilk növbədə şəhid adının əbədiləşdirilməsi ilə bağlı müraciətlər nəzarətə götürülüb.

Çıxış edən şəhid ailələrinin üzvləri Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın onlara göstərdikləri xüsusi diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam edir. Hər ay müxtəlif rayonlarda keçirilən qəbullarda sakinlərin müraciət və problemləri dinlənilir, həlli ilə əlaqədar müvafiq addımlar atılır.

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov sentyabrın 23-də Ağdaş rayon Heydər Əliyev Mərkəzində Ağdaş, Göyçay, Ucar və Zərdab sakinləri, eləcə də digər rayonlardan qəbula gələn vətəndaşlarla görüşüb.

Heydər Əliyev Mərkəzində nazirliyin məsul əməkdaşlarının da iştirakı ilə vətəndaşların qəbulu keçirilib. Qəbulda iştirak edən sakinlərin müraciətləri işlə təmin olunma, işə bərpa olunma, əmək müqaviləsinin uzadılması, kadr məsələləri, uşaq musiqi məktəblərinə müəllimlərin işə qəbulu üzrə müsabiqə, heykəltaraşlıqla bağlı layihələrə cəlb olunma, tarixi abidənin şəxsi vəsait hesabına bərpası barədə və digər məsələləri əhatə edib.

Anar Kərimov vətəndaşların müraciət və təkliflərini dinləyib, ərizə və şikayətlərinə baxıb. Qaldırılan məsələlərin operativ, hərtərəfli araşdırılması və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

❖ ❖ ❖

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Xızı rayonunda Xızı və Siyəzən rayonlarının sakinlərini fərdi qaydada qəbul edib.

Vətəndaşlar qəbul zamanı mənzillə təminat, əlilliyin qiymətləndirilməsi, ünvanlı dövlət sosial yardımı və s. məsələlərlə bağlı müraciət ediblər.

Müraciət edən vətəndaşların bir hissəsi şəhid ailələrinin üzvləri və müharibə veteranları olub.

Qəbul zamanı müraciətlər araşdırılıb və aidiyyəti tədbirlər görülüb.

❖ ❖ ❖

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Qazax rayonunda vətəndaşları qəbul edib.

Bu barədə agentliyin İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Qazax rayonunda Heydər Əliyev Mərkəzinin inzibati binasında keçirilən qəbulda Qazax, Ağstafa və Tovuz rayonlarından olan vətəndaşların müraciət və şikayətləri dinlənilib. Qəbul zamanı müraciətlər əsasən avtomobil yollarının təmir-bərpası və yenidən qurulması, işə qəbul və digər məsələlərlə bağlı olub.

Qəbulda hər bir vətəndaşın müraciəti dinlənilərək şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

❖ ❖ ❖

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev sentyabrın 23-də Sabirabad şəhərində Sabirabad, Saatlı və İmişli rayonlarından olan vətəndaşlarla görüşüb.

Qəbul zamanı vətəndaşların müraciətləri dinlənilib, komitənin fəaliyyət istiqamətlərinə aid olan müvafiq müraciətlərdən bəziləri yerində müzakirə edilərək həlli yolları izah olunub, digərləri isə araşdırılaraq həll edilməsi üçün aidiyyəti üzrə yönləndirilib.

❖ ❖ ❖

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev sentyabrın 23-də Şəmkir Rayon Mərkəzi Xəstəxanasında Şəmkir və Gədəbəy rayonlarının sakinlərini qəbul edib.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin icraçı direktoru Vüqar Qurbanovun rəhbərliyi ilə Şəmkir, Gədəbəy, Ağstafa və Tovuz rayon mərkəzi xəstəxanalarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 43 vətəndaşın müraciətinə baxılıb. Vətəndaşların müraciətləri əsasən əlillik məsələləri, iş və əmək münasibətləri, müayinə-müalicə, icbari tibbi sığorta çərçivəsində ixtisaslaşdırılmış tibb müəssisələrinə göndəriş vərəqələrinin verilməsi, dərman təminatı ilə bağlı olub. Müraciətlər diqqətlə dinlənilib və bir sıra məsələlər yerində həll olunub. Digər müraciətlərin araşdırılması və qanunvericiliyə uyğun baxılması məqsədilə müvafiq tapşırıqlar verilib.

Eyni zamanda agentliyin İdarə Heyətinin sədri Şəmkir və Gədəbəy rayon mərkəzi xəstəxanalarında işlə təmin olunan 28 nəfər Vətən müharibəsi iştirakçısı və şəhid ailəsi üzvü ilə görüşüb.

***AZƏRTAC***

# Şəhid atasına oğlunun ordeni təqdim olundu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 44 günlük Vətən müharibəsində iştirak edən bir qrup əsgər və zabit orden və medallarla təltif olunub. Onların arasında mingəçevirli şəhid Qurbanov Tərxan Zabit oğlu da vardır.



O, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub. Təqdimetmə mərasimi Mingəçevir şəhərindəki Heydər Əliyev Mərkəzində keçirildi. Orden şəhidin atası Zabit Qurbanova təqdim olundu. Tədbirdə şəhər icra hakimiyyətinin başçısl İlham İsmayılov, Mingəçevir bələdiyyəsinin sədri Ramiz Əliyev, YAP şəhər təşkilatının sədr müavini Bəxtiyar Mustafayev, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Mingəçevir şəhər şöbəsinin rəisi Namiq Osmanov, şəhid ailələri cəmiyyətlərinin sədrləri, şəhid ailələrinin nümayəndələri, qazilər, ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Tədbirdə çıxış edən şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov 44 günlük vətən müharibəsi zamanı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Milli Ordumuzun əldə etdiyi uğurlardan, əsgər və zabitlərimizin şücaətlərindən, möhtəşəm zəfərdən danışdı. Vətən müharibəsində mingəçevirlilərin də qəhrəmanlıqla iştirak etməsindən, o cümlədən şəhid Tərxan Qurbanovun həyat hekayəsindən söz açdı, Prezidentin sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmasını onun döyüş şücaətinə verilən qiymət kimi dəyərləndirdi. Ordeni şəhidin atasına təqdim edərək bütün şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa dilədi.

Tədbirdə Tərxan Qurbanovun təhsil aldığı 3 nömrəli tam orta məktəbin direktoru Gültəkin Quliyeva və həmin məktəbin müəllimi, Tərxanın sinif rəhbəri Anjelika Səfərova çıxış edərək igid əsgərin keçdiyi təhsil illərini yada saldılar.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Beynəlxalq Sahilyanı Təmizlik Günü münasibətilə təmizlik aksiyası



Beynəlxalq Sahilyanı Təmizlik Günü ilə əlaqədar sentyabrın 23-də IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Gənclər Fondu və "Təmiz Şəhər" ASC-nin birgə təşkilatçılığı ilə ənənəvi sahilyanı təmizlik aksiyası təşkil edilib.



AZƏRTAC xəbər verir ki, "Sahillər təmiz qalsın" şüarı altında Bilgəh çimərliyi ərazisində təşkil edilən aksiyaya 150 nəfərdən çox könüllü gənc, tərəfdaş təşkilatların nümayəndələri qoşulub.

Tədbirin əsas məqsədi dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və bütün gəncləri dənizətrafı mühitin mühafizəsi uğrunda mübarizəyə cəlb etməkdir.

Tədbir zamanı zəruri sanitar ləvazimatlarla təchiz olunmuş aksiya iştirakçıları topladıqları tullantıları çeşidləyərək çimərliklərdə ən çox müşahidə olunan zibilləri müəyyən ediblər. Tullantıların toplanması prosesini daha effektiv təşkil etmək məqsədilə əraziyə xüsusi texnika da cəlb olunub. Daha sonra bütün tullantılar Balaxanı Bərk Məişət Tullantılarının Çeşidlənməsi Zavoduna təhvil verilib.

Qeyd edək ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə baxımsız sahilyanı ərazilərin tullantılardan təmizlənməsi və abadlaşdırılması, insanların rahat istirahət etməsi üçün lazımi şəraitin yaradılması, ictimai sağlamlıq və gigiyenanın yaxşılaşdırılması, eləcə də ekoloji və sosial məsuliyyətin təşviq edilməsi məqsədilə paytaxtımızda ictimai çimərliklər yaradılıb. IDEA İctimai Birliyinin təşkilatçılığı ilə Şıx, Goradil, Novxanı, Buzovna, Pirşağı və Sahil qəsəbə çimərliklərinin ərazilərində olmaqla ümumilikdə 6 ictimai çimərlik əhalinin istifadəsinə verilib. Eyni zamanda ölkədə ilk dəfə olaraq Şıx çimərliyində əlilliyi olan şəxslərə müyəssərliyin təmin edilməsi məqsədilə lazımi şərait yaradılıb. Bu cür infrastrukturun digər ictimai çimərliklərdə də yaradılması nəzərdə tutulur.

IDEA İctimai Birliyi təşkil edilən təmizlik aksiyalarında xüsusi fəallıq göstərən, dünyanı yaxşılığa doğru dəyişməyə özündən başlayan, planetimizi gözəlləşdirməkdə öz dəstəyini əsirgəməyən bütün könüllülərə və tərəfdaş təşkilatlara dərin minnətdarlığını bildirir, hamını indiki və gələcək nəsillərin rifahı naminə birləşməyə və təbiətin bizə bəxş etdiyi nemətlərə həssas yanaşmağa çağırır.

# Jerom LAMBER: "Erməni lobbisi Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasına əngəl yaradır"

Azərbaycanın yaxın dostu, Fransa Milli Assambleyasının sabiq deputatı Jerom Lamber Qafqazı tanımayan, ancaq bu regionda baş verən hadisələrlə bağlı erməni lobbisi tərəfindən hazırlanmış şablon mətnlərlə kor-koranə fikirlər söyləyən Fransa siyasi dairələrinin bəzi üzvlərinin sosial şəbəkələrdə paylaşımlarına tutarlı cavab verib.

AZƏRTAC xəbər verir ki, Jerom Lamber Ermənistanın Azərbaycanla dövlət sərhədində törətdiyi son hərbi təxribatla bağlı heç kimin məlumatlı olmadığını, ancaq təxribata dair şablon və reallığı əks etdirməyən fikirlər səsləndirildiyini qeyd edib.

"İki il əvvəl tərəflərin imzaladığı razılaşmadan sonra hər iki xalq 1990-cı illərin əvvəlindən gərginləşmiş münaqişəyə qəti son qoymaq üçün danışıqlar aparmalı idi. Ancaq bu danışıqlar o qədər mürəkkəbdir ki, müxalifət hökuməti devirmək üçün Ermənistanda nümayişlər keçirir.

Azərbaycan və Ermənistanın dövlət və hökumət rəhbərləri arasında danışıqlar getdiyi bir vaxtda (məsələn, Avropa İttifaqının himayəsi altında keçirilən görüşlər) erməni müxalif qüvvələr bunun dayanması üçün səylərini daha da artırırlar. Belə bir vəziyyətdə sərhəddə ciddi insident baş verir..! Bu insident kimin maraqlarına xidmət edir? Azərbaycanın qüdrəti göründüyü kimidir, bugünkü kontekstdə də çox sabitdir. Özünün arzuladığı, təşəbbüskarı olduğu danışıqlardan imtina etmək üçün qonşusunu böhrana salmağa nə ehtiyacı, nə də marağı var. Vəziyyət onu deməyə əsas verir ki, təxribatlar Azərbaycanla bütün razılaşmalardan imtina edən erməni silahlı qüvvələri tərəfindən törədilib", - deyə J.Lamber ermənilərin törətdiyi son təxribatla bağlı fikrini açıqca söyləyib.

Bildirib ki, Azərbaycan ərazilərinin işğalı ilə bağlı BMT Təhlükəsizlik Şurası tərəfindən yekdilliklə qınanılan Ermənistandır, Azərbaycan deyil!

Erməni diasporunun yüksək səviyyədə təmsil olunan erməni siyasi qüvvələri Azərbaycanla hər hansı razılaşmanı rədd edir və erməni mədəniyyətli əhalinin yaşadığı ərazilərin ilhaqını müdafiə edirlər. Ermənistan Azərbaycanla münaqişəni beynəlmiləlləşdirməyə çalışır. Bu ölkə 1990-cı illərin əvvəllərində müttəfiqi olan sovet qoşunlarının dəstəyi ilə Azərbaycan ərazisinin 20 faizini işğal etmişdi.

"Bu gün Rusiyanın başının Ukraynaya qarışmasından istifadə edən Ermənistan indi başqa dəstək tapmağa çalışır və erməni diasporunun lobbisi iş başındadır. Xristian "dəyərləri" önə çıxarılır... sanki bu, dini münaqişədir. Amma bu, qətiyyən belə deyil. Azərbaycan bütün monoteist dinlərin sülh şəraitində birgə yaşadığı və ateizmin də qəbul edildiyi dünyəvi dövlətdir. Ermənistanda isə əksinə, insanlar yalnız xristian dininə etiqad edir və bu dövlət öz işğalçılıq müharibələrində həmişə qeyri-xristian əhalini qovmaqla, digər dinlərin mövcudluğunun izlərini mümkün qədər silməklə etnik təmizləmə həyata keçirib. Bakıda bütün digər dini məkanlar kimi, sinaqoqda və ya kilsədə dua etməyə gedə bilərsiniz. Əslində, fərq bu və ya digər ölkənin lobbiçilik imkanları ilə bağlıdır. Ermənilər Qərbdə güclü və nüfuzlu diaspor vasitəsilə təmsil olunur. Digər tərəfdən, bəs görəsən Azərbaycanı həqiqətən kim tanıyır?", - deyən sabiq fransız deputat bu gün erməni lobbisinin iki ölkə arasında münasibətlərin normallaşmasına əngəl olduğunu bildirib.

Qeyd edilib ki, əslində, Azərbaycan erməni lobbilərinin, çox vaxt ifrat millətçilərin onun haqqında yaydıqları şablon karikaturalardan çox fərqli uzaq ölkədir.

Sonda J. Lamber "siyasətçiləri" obyektiv olmağa çağırıb.

Xatırladaq ki, Jerom Lamber 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan həqiqətləri haqqında məlumat verdiyi üçün öz ölkəsində erməni diasporunun radikal üzvləri tərəfindən hədələnib və təhqir olunub.

AZƏRBAYCAN www.azerbaijan-news.az

# İşğal zamanı Azərbaycanın ən gözəl inciləri məhv edildi


Şuşa

Ağdam

Füzuli

Laçın

Kəlbəcər

Qubadlı

Zəngilan

Cəbrayıl

Xocalı

Xocavənd

Tərtər

Qazax

**Arxeoloji qazıntılar Azərbaycanın bəşər sivilizasiyasının meydana gəldiyi ərazilərdən biri olduğunu təsdiqləyib. Ulu əcdadlarımız əsrlər, minilliklər boyu yaratdıqları çoxsaylı abidələrlə həm də bizə öz həyata baxışları, məişətləri, arzuları, xəyalları barədə məlumatlar ötürüblər. Bu abidələr yalnız Azərbaycanın deyil, dünya və Şərq memarlığının da ən gözəl inciləridir.**

### Qarabağ və Şərqi Zəngəzurda erməni vandallarının insanlığa sığmayan əməlləri

Azərbaycan xalqı və dövləti öz tarixi irs nümunələrinə daim ehtiramla yanaşır, qorunması və mühafizəsi istiqamətində müxtəlif tədbirlər həyata keçirir. Təəssüf ki, ölkəmizin bütün ərazilərində hər zaman bu işləri aparmaq mümkün olmadı. 1990-cı illərdə Azərbaycanın əzəli ərazilərini işğal edən təcavüzkar ermənilər yerli əhaliyə məxsus mülki və təsərrüfat obyektlərini məhv etdilər. İşğalçılar Azərbaycanın misilsiz mədəniyyət abidələrini də amansızlıqla dağıtdılar. Ermənistan tərəfindən işğal edilmiş ərazilərimizdə 13 dünya əhəmiyyətli (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli (270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidələri mövcud idi. Eyni zamanda 40 mindən artıq eksponatın toplandığı 22 muzey, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 klub, 4 teatr və 2 konsert salonu, 31 məscid, 9 tarixi saray, 8 mədəniyyət və istirahət parkı, 4 rəsm qalereyası, 85 musiqi məktəbi işğal olunmuş ərazilərdə qaldı.

İşğal olunan ərazilərimizdəki maddi-mədəniyyət abidələrimizə yağı düşmən əlləri uzandı. Onların təkcə Azərbaycan üçün deyil, bütün dünya üçün misilsiz dəyərlərə malik olduğunu nəzərə almadılar. Tarixi, mədəni, dini abidələrin zənginliyi ilə diqqəti cəlb edən Qarabağ və Şərqi Zəngəzurda fəaliyyət göstərən bütün abidələr, muzeylər, məscidlər, ziyarətgahlar Ermənistanın işğalı nəticəsində yerləyeksan oldu. İlk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları Ermənistan silahlı qüvvələri tərəfindən hərbi məqsədlər üçün istifadə olundu, qəsdən dağıdıldı. Xocalı, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl rayonlarındakı kurqanlarla yanaşı, işğal olunmuş Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərindəki qəbiristanlıqlar, türbələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli irsimizə qarşı vandallıq törədildi.

Beş minə yaxın eksponatı olan Şuşa Tarix Muzeyi, Dövlət Xalça Muzeyinin filialı və Xalq Tətbiqi Sənəti Muzeyi, Qarabağ Dövlət Tarix Muzeyi, Laçın rayonundakı Ağoğlan məbədi, Xocalıdakı Əsgəran qalası, Kəlbəcər Tarix Muzeyinin və digər mədəniyyət ocaqlarının, rəsm qalereyalarının bənzərsiz ekspozisiyaları da talandı. Kitabxanalar yandırıldı, misilsiz əlyazma nümunələri məhv edildi. Təcavüzkar ermənilər müqəddəs məbəd və məscidlərimizi təhqir etməyi belə özlərinə rəva gördülər.

### Gəlmə ermənilər özlərinə saxta "tarix yaratmağa" çalışıblar

Tarixi mənbələr təsdiq edir ki, bu torpaqlarda ermənilər yaşamayıblar. Yalnız XIX əsrdən etibarən ərazilərimizə erməni ailələri köçürülməyə başlanılıb. Təbii ki, ermənilərin sonradan gətirilib yerləşdirildikləri yerlərdə onların tarixi abidələri də olmayıb. Hər kəsə gün kimi aydın olan bu həqiqəti ört-basdır etmək üçün ermənilər uzun illər canfəşanlıq göstəriblər. Azərbaycan tarixini saxtalaşdırmaqla özlərinə "tarix yaratmağa" çalışıblar. Bu məqsədlə ölkə və dünya əhəmiyyətli qədim abidələrimizi erməniləşdirmək üçün hər vasitəyə əl atıblar.

XX əsrin sonlarında Azərbaycandan yeni ərazilər qoparmaq məqsədilə təxribatlar törədən təcavüzkar ermənilər münaqişələr yaratmağa nail oldular. 1990-cı illərdə isə ərazilərimizin iyirmi faizini işğal etdilər. Otuz il davam edən işğal müddətində genişmiqyaslı arxeoloji qazıntı işləri aparan ermənilər kurqanlarımızı dağıdıb, dünya əhəmiyyətli tapıntıları qarət edərək Ermənistana daşıyıblar. Dünya əhəmiyyətli arxeoloji abidə sayılan Paleolit dövrünə aid Azıx mağarası da uzun illər işğal altında qalıb. Hələ 1968-ci ildə Məmmədəli Hüseynovun rəhbərliyi ilə aparılan arxeoloji qazıntılar bu mağaranın bütün bəşəriyyətin tarixini əks etdirməsi baxımından əhəmiyyətini üzə çıxarmışdı. İşğal illərində Azıx mağarasında ermənilər tərəfindən bütün beynəlxalq hüququn norma və prinsiplərinə zidd arxeoloji qazıntılar həyata keçirilmişdi.

### İşğaldan azad edilən ərazilərimizdəki tarixi abidələr bərpa edilir

2020-ci ildə Müzəffər Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini məğlub etdi. Otuz ilə yaxın işğalda qalan torpaqlarımız xilas olundu. Bütün dünya işğalçı Ermənistanın beynəlxalq konvensiyaları, xüsusilə "Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında" 1954-cü il Haaqa Konvensiyasını və ona dair protokolları, eləcə də UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" Konvensiyasının pozulması, Qarabağda, Şərqi Zəngəzurda qədim abidələrin, tarixi memarlıq irsinin erməni vandalları tərəfindən qəsdən məhv edilməsi faktlarını öz gözləri ilə gördü.

Bu gün Azərbaycan dövləti həmin ərazilərdə genişmiqyaslı tikinti-quruculuq, bərpa işləri həyata keçirir. Azad Qarabağda və Şərqi Zəngəzurda qədim dövrlərdən qorunub saxlanılan və işğal nəticəsində böyük ziyan görmüş Azərbaycan abidələrinin, memarlıq irsinin bərpası və qorunması istiqamətində də çox mühüm, olduqca əhəmiyyətli işlər görülür.

Azad olunan ərazilərimizdə 706-sı dövlət qeydiyyatında olmaqla 2600-dən çox tarix-mədəniyyət abidəsi var. Şuşa qalası, Xudafərin körpüləri, Gəncəsər, Xudavəng monastırları, Qutlu Musa türbəsi, Azıx mağarası Qarabağ və Şərqi Zəngəzurda dünya əhəmiyyətli tarix-mədəniyyət abidələridir. Onlardan bəziləri bərpa edilib. Bununla yanaşı, Üzərliktəpədə də arxeoloji işlər həyata keçirilir. Həmçinin Üzeyir bəy Hacıbəylinin heykəli, Molla Pənah Vaqifin büstü və məqbərəsi, Bülbülün ev-muzeyi artıq bərpa olunub. Aşağı və Yuxarı Gövhər ağa, Saatlı, Ağdam Cümə məscidlərinin bərpası işləri isə davam etdirilir. Qiyaslı məscidinin bərpasına başlanılması nəzərdə tutulub.

Tariximizi yaşadan, əcdadlarımızdan yadigar qalan və otuzillik işğal dövründə düşmənlərimiz tərəfindən məhv edilən, saxtalaşdırılan memarlıq abidələrimizin bərpası və mühafizəsi yalnız Azərbaycan dövləti və Azərbaycan xalqı üçün deyil, dünya irsinin qorunması baxımından da mühümdür.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

# Türkiyə nümayəndə heyəti Şuşa şəhəri ilə tanış olub

*Əvvəli 1-ci səh.*

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov onlara şəhərin tarixi, işğal dövründəki vəziyyəti və hazırda aparılan quruculuq işləri barədə məlumat verib. Bildirib ki, 30 ilə yaxın işğal dövründə Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin əsl tarixi simasının, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb.

Diqqətə çatdırılıb ki, 270 yaşlı mədəniyyət paytaxtı olan Şuşa şəhəri hər zaman muğam-sənət beşiyi kimi tanınıb. Sənətkarlığın və incəsənətin müxtəlif sahələrinin inkişafı nəinki Azərbaycanın Qarabağ bölgəsinin, bütövlükdə ölkəmizin tərəqqisində mühüm rol oynayıb. Şuşa Azərbaycan mədəniyyətinin və ədəbiyyatının inkişafına misilsiz töhfələr vermiş görkəmli şəxsiyyətlərin diyarıdır.

Qonaqlara Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin güllələnmiş heykəlləri barədə də məlumat verilib. Bildirilib ki, işğal zamanı ermənilər heykəlləri Ermənistana apararaq əritmək istəyiblər. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər əvvəlki yerlərinə qaytarılıb.

Xurşidbanu Natəvanın evi, Xan qızı bulağı olan ərazi və qala divarları də qonaqlarda maraq doğurub. Türkiyə Səhiyyə Nazirliyinin nümayəndə heyətinə məlumat verilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, alınmazlıq simvolu olub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

Sonra Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional vokal məktəbinin təşəkkülü və təkamülündə mühüm rol oynamış Bülbülün Şuşa şəhərindəki ev-muzeyi ziyarət olunub. Muzeyin fəaliyyəti və tarixi barədə qonaqlara məlumat verilib.

Qonaqlar Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinə də baş çəkiblər. Bildirilib ki, kompleks Şuşa şəhərinin ən səfalı yeri olan Cıdır düzünə yaxın ərazidə - dahi şairin məzarı üzərində inşa edilib. İşğal dövründə kompleksin binası da erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra məqbərə təmir və bərpa edilərək Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib.

Türkiyə Səhiyyə Nazirliyinin nümayəndə heyəti Cıdır düzündə də olub, oradan açılan gözəl mənzərəni seyr ediblər. Diqqətə çatdırılıb ki, Vətən müharibəsi zamanı qəhrəman əsgərlərimiz böyük şücaət göstərərək sıldırım qayalarla Cıdır düzünə qalxıb, canları, qanları bahasına Şuşanı işğaldan azad ediblər. Bu gün Cıdır düzü işğaldan əvvəl olduğu kimi, yenə də möhtəşəm tədbirlərin keçirildiyi məkana çevrilib.






Yuxarı Gövhər ağa məscidini ziyarət edən qonaqlar cümə namazı qılıblar. Vətən şəhidlərinin ruhlarına rəhmət diləmiş və dualar oxunub.

Türkiyənin səhiyyə naziri Azərbaycanın mədəniyyət paytaxtının gözəlliyinə heyran olduğunu bildirərək, Şuşanın azad edilməsinin tarixi əhəmiyyətini vurğulayıb. Fahrettin Koca Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tərəfindən uzun illər Ermənistanın işğalı altında olan ərazilərin, o cümlədən Şuşa şəhərinin azad edilməsindən böyük sevinc və qürur hissi keçirdiyini qeyd edib.

Xatırladaq ki, Türkiyə Səhiyyə Nazirliyinin nümayəndə heyəti ötən gün Bakıda keçirilən Azərbaycan-Türkiyə səhiyyə biznes-forumu və sərgisinin açılış mərasimində iştirak edib.

# "Şuşa ili" çərçivəsində Vyanada "Azad Şuşa" adlı konsert təşkil olunub




"Şuşa ili" və Diaspora İş üzrə Dövlət Komitəsinin yaradılmasının 20 illiyi münasibətilə sentyabrın 22-də Avstriyanın paytaxtı Vyanada "Azad Şuşa" adlı konsert təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Avstriya Azərbaycanlıları Cəmiyyətinin və Vyanada fəaliyyət göstərən "Culture Meeting Point" təşkilatı tərəfindən reallaşdırılan konsert şəhərin mərkəzində yerləşən Müqəddəs Peter kilsəsində baş tutub. Tədbirdə Vyanada akkreditə olunmuş diplomatik korpusun, yerli ictimaiyyətin və Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.

Konsertdən əvvəl "Culture Meeting Point" qurumunun musiqi üzrə rəhbəri, incəsənət üzrə fəlsəfə doktoru, musiqişünas Fərəh Tahirova çıxış edərək, orqan konsertinin Şərqlə Qərb arasında musiqi körpüsü rolu oynadığını bildirib. Bu ilin Azərbaycanda "Şuşa ili" elan olunduğunu tamaşaçıların diqqətinə çatdıran F.Tahirova Şuşa şəhərinin Azərbaycan mədəniyyətinin inkişafındakı rolundan bəhs edib. Qeyd edilib ki, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri dahi Üzeyir bəy Hacıbəyli başda olmaqla, Niyazi, Bülbül, Xan Şuşinski və digər tanınmış şəxsiyyətləri Azərbaycan musiqi mədəniyyətinə bəxş edib.

F.Tahirova xüsusilə vurğulayıb ki, bu konsert çərçivəsində Avstriyada ilk dəfə Azərbaycanın muğam musiqisi orqan musiqi alətinin ifasında təqdim ediləcək. O, bu konsertin ərsəyə gəlməsində göstərilən dəstəyə görə Diaspora İş üzrə Dövlət Komitəsinə, Avstriya Azərbaycanlıları Cəmiyyətinə və Müqəddəs Peter kilsəsinin direktorluğuna minnətdarlığını bildirib.

Konsertdə ABŞ-da yaşayan azərbaycanlı musiqiçi, Azərbaycan-Amerika Musiqi Fondunun təsisçisi və icraçı direktoru, professor Cəmilə Cavadova-Spitzberg çıxış edib. Tanınmış musiqiçi orqanda bəstəkarlar Qara Qarayev, Vasif Adıgözəlov, Aqşin Əlizadə, Yohann Ernst Eberlin, Georq Mufat və Yozef Rennerin əsərlərini səsləndirib.

# Qlobal təhdid olan "TikTok"un milli təhlükəsi

## Bu sosial şəbəkə artıq gənclərlə yanaşı, yeniyetmə və uşaqları da zərərli təsiri altına alır

**Sosial şəbəkələrin insan həyatına, cəmiyyətin psixologiyasına təsirləri zaman keçdikcə özünü daha qabarıq şəkildə göstərməkdədir. Bəzən qəbul edilməyən, hətta ictimai ittiham obyekti olan müəyyən hərəkətlər, davranışlar belə müxtəlif platformalarda gün ərzində dəfələrlə insanın qarşısına çıxaraq şüuraltına təsirsiz ötüşmür. Bunun nəticəsində mənəvi təhdidə çevrilən video və paylaşımların sürətlə yayılan, təkrarlanmış müxtəlif variantlarının şahidi oluruq.**

2016-cı ildən sosial mediaya daxil olan, qısa müddətdə istifadəçilərinin sayı sürətlə artan, dünyada olduğu kimi, Azərbaycanda da cəmiyyətin mütləq əksəriyyətinin kəskin etirazına səbəb olan "TikTok" artıq dövlətimiz üçün ciddi təhlükə mənbələrindən birinə çevrilib. Bununla yanaşı, "TikTok" müəyyən pis vərdişlərə təhrik, insan alverini əlçatan edən, dələduzluq hallarını artıran, eyni zamanda əxlaqi dəyərləri aşındıran neqativ davranışların virtual məkanı olub. Bütün bunlar bu sosial şəbəkənin hüquqi müstəvidə səbəb olduğu təhlükəli problemlərlə yanaşı, milli-mədəni və mənəvi keyfiyyətlərə də zərər verməsinə şərait yaradır.



Sentyabrın 12-si gecə saatlarından etibarən Ermənistanın törətdiyi hərbi təxribatın qarşısının alınması istiqamətində Azərbaycan Ordusunun qarşı tərəfə layiqli cavab tədbirləri zamanı hərbi sirlər, xüsusən də dezinformasiyalarla dolu paylaşımların bu sosial şəbəkədə sürətlə yayılması artıq milli təhdid təşkil etdi.

Ordumuzun uğurlarına kölgə salan, hərbi sirləri özündə əks etdirən, cəmiyyətdə yanlış fikir formalaşdırmaq məqsədi güdən məlumatların yayılmasının qarşısını almaq üçün "TikTok"un fəaliyyətinin Azərbaycan ərazisində müvəqqəti məhdudlaşdırılması ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətinin aidiyyəti orqanlar qarşısında qaldırdığı vəsatət təmin olundu. Bununla da artıq bir müddətdir ki, bu sosial şəbəkəyə ölkə ərazisində giriş məhdudlaşıb.

### "TikTok"un ölkədə məhdudlaşdırılmasının səbəbi

"TikTok"un ölkədə yayımının müvəqqəti məhdudlaşdırılmasına aydınlıq gətirən Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin idarə rəisi Tural Məmmədov açıqlamasında bildirib ki, bu sosial şəbəkədə dezinformasiya xarakterli məlumatların yayılması daha çox risk daşıdığı üçün ölkə ərazisində bloklanmasına dair qərar qəbul edilib. Onun sözlərinə görə, müəyyən insanlar "TikTok"u daha asan istifadə oluna bilən formata salıb: ""TikTok"un alqoritmi var ki, siz hansısa videoya baxdıqda ona uyğun digər kontentləri cəmləyib sizin qarşınıza çıxarır. Bu vasitə ilə sizi həm doğru, həm də yanlış istiqamətlərə yönəldə bilir".

İdarə rəisi qeyd edib ki, doğru məlumata baxılanda düşmən ölkə həmin məlumata uyğun, məsələn, 10 dənə yanlış və sövqedici məlumat paylaşır. Belə olan halda siz informasiya müharibəsinin qurbanına çevrilə bilirsiniz.

Tural Məmmədov deyib ki, eyni addımı düşmən ölkə də atıb. Təhdidlər hər iki tərəfdən eyni formada dəyərləndirilir və məqbul hesab olunduğu, risk daşıdığı üçün məhdudlaşdırıcı addım atılıb.

### Tətbiq edilən məhdudiyyət qanunlara tam uyğundur

Günümüzdə sosial şəbəkələrin informasiyaya əlçatanlığında, həmçinin istənilən məsələnin trendə çevrilməsində necə böyük rola malik olduğu danılmazdır. XXI əsrin texnoloji irəliləyişləri, innovativ həll yolları bəşəriyyəti fərqli istiqamətlərə yönəldir. Yəni bu gün olduğumuz yerdən dünyanın istənilən nöqtəsində baş verənlərdən xəbər tutmaq imkanımız var. Bəzən isə son texnologiyaların və internetin verdiyi böyük imkanlardan insanların yanlış istifadəsi nəticəsində neqativ halların artdığını görürük.

Sözügedən məsələ ilə bağlı qəzetimizə açıqlama verən Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli qeyd edir ki, Avropa İnsan Haqları Konvensiyasının 10-cu maddəsinə əsasən, cəmiyyətdə kataklizmlər törədən, milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş maraqları naminə təhlükə yaradan informasiya vasitələrinin və KİV-in fəaliyyəti məhdudlaşdırıla bilər. Onun sözlərinə görə, "TikTok" sosial şəbəkəsi son vaxtlar Azərbaycanda ciddi şəkildə problemə çevrilib. Bu səbəblə onun fəaliyyətində məhdudiyyətin tətbiq edilməsi həm yerli qanunlara, həm də beynəlxalq konvensiyalara uyğun addımdır.

Sədr müavini bildirir ki, "TikTok" digər sosial şəbəkələrdən bir çox xüsusiyyətləri ilə fərqlənir. Bəzi sosial şəbəkələrdə konkret standartlar tətbiq olunur. Məsələn, feysbuk, yutub kimi platformalarda nifrət, şiddət, terror və reklamı özündə ehtiva edən, müəllif və insan hüquqlarını pozan hər hansı paylaşım etmək olmaz. Həmin kontentli paylaşımlar yayımlansa belə onlara məhdudiyyət qoyulur və sosial şəbəkədən silinir. "TikTok"da isə belə məhdudiyyətlər mövcud deyil, burada heç bir informasiya standartı gözlənilmir: "İstər uşaq haqlarını pozan, istər pornoqrafiya, istərsə də terrorizmi təbliğ edən paylaşımlar asanlıqla yayımlanır və kütləvi izlənilir. Belə olduğu halda da bu platforma sui-istifadə üçün geniş meydana çevrilir".

"TikTok" problemli sosial şəbəkə olduğundan qeyri-sabit şəraitlərdə bu kimi hallar özünü ikiqat göstərməyə başlayır. Son dövrlərdə isə manipulyativ xarakterli paylaşımların sayı kəskin artıb. Müşfiq Ələsgərli deyir ki, hətta orduda xidmət edən əsgərlərin erməni təxribatları zamanı canlı yayım açmasına təsadüf edilib. Həmin yayımlarda və ya paylaşımlarda əsgərlər olduqları ərazidə baş verənlərdən danışır, hərbi və dövlət sirlərini izləyicilərlə bölüşürdülər. Bu kimi hallar isə düşmənə onların koordinatlarını asanlıqla müəyyən edib hücuma keçməyə imkan verirdi. Məhz bu sadalananlara görə, platformadan istifadənin məhdudlaşdırılması zəruri idi.

Sədr müavini bildirir ki, bir çox ölkələr bu addımı zaman-zaman çıxış yolu olaraq görüb. Məsələn, Hindistanda 2020-ci ildən bu proqramdan istifadə milli təhlükəsizlik baxımından qadağan edilib. Rusiyada isə 2022-ci ilin fevralından məhdudlaşdırılıb.

### Psixoloji müharibədə məlumatların dəqiqliyi, süzgəcdən keçməsi vacibdir

"TikTok" sosial və təhlükəsizlik problemləri yaratmaqla yanaşı, cəmiyyətdə, xüsusən uşaqlarda ciddi psixoloji fəsadlar da törədir. Şəbəkənin insan psixologiyasına təsirlərindən, zərərlərindən danışan psixoloq, bu sahə üzrə mütəxəssis İbrahim İbrahimov qəzetimizin əməkdaşına açıqlamasında deyib ki, "TikTok"da qısametrajlı videoların çəkilib yayımlanması və bunun sürətlə yayılması şəbəkənin ən mənfi tərəfidir. Onun sözlərinə görə, belə texnologiyaların inkişafı gələcəkdə psixoloji problemləri artıracaq: "Texnologiya inkişaf etdikcə, hər kəs bu vasitələrdən istifadə etməklə, bir-birini çəkib paylaşır və həmçinin bu yolla şantaja əl atır. Bu da şantaj olunan tərəfin hətta intiharına qədər gətirib çıxarır".

Psixoloq qeyd edir ki, videonu çəkən tərəflərə sosial şəbəkədə əylənmək, gülmək üçün material lazımdır. Onlar həmin görüntüləri insanların düşdüyü qəribə vəziyyət, hər hansısa sözü düzgün deməməsi, nəyisə səhv başa düşməsi kimi hallarda çəkirlər və bu da həmin şəxsi ələ salmaq üçün materiala çevrilir. Beləliklə, video yayımlanır və başqaları tərəfindən tez-tez paylaşılır. Bu "yumoristik" yanaşmanın təhlükələri çoxdur. Çünki burada ələ salınan insanın yaxınları da bu videoya baxır, vəziyyətdən utanır, hətta depressiyaya düşürlər. Bu baxımdan bir insanı ələ salanda mütləq nəticəsini, həmin şəxsə hansı travma yaşadacağını düşünmək lazımdır.

İbrahim İbrahimov deyir ki, sosial şəbəkələrdə hər kəsin canlı yayım aça bilməsi, çəkdiyi videoları paylaşmasının mümkünlüyü də bəzən insanların yanlış informasiyalar almasına gətirib çıxarır. Məsələn, hansısa "mütəxəssis" səhv məlumat verir, milyonlarla istifadəçi isə ona inanır və videonu paylaşır. Əsası olmayan fikirlər səsləndirilir, reallıqdan kənar məlumatlar yayımlanır. Belə videolar insanların həyat tərzinə zərərli təsir göstərə, bəzən isə ailədə mübahisələrə səbəb ola bilir. Xüsusən "mütəxəssis"lərin müəyyən məlumatlar yayması cəmiyyətdə ajiotaja gətirib çıxarır. Psixoloq deyir ki, "TikTok"da süzgəcdən keçməmiş videolar yayılır, bunun da qarşısını almaq mümkün deyil.

Azərbaycanda "TikTok"un müvəqqəti məhdudlaşdırılması ilə bağlı isə ekspert deyir ki, hərbçilərin olduqları ərazidən video yayması düşmən tərəfindən ərazinin, hədəflərin təsbit olunmasına imkan verir.

İ.İbrahimov bildirir ki, Ermənistan tərəfi həmişə itkilərini gizlədir. Bunun da səbəbi odur ki, onsuz da qorxaq olan əsgərləri panikaya düşməsin, həvəssiz döyüşməsin, çünki məlumat insanı idarə edir. Onun sözlərinə görə, təbliğatın yanlış növlərindən düşmən istifadə edir: "Ermənilər 44 günlük Vətən müharibəsindən sonra qəfil ayıldı ki, bugünə kimi yalan informasiyalara inanıblar. Məlum oldu ki, Azərbaycan Ordusu artıq Şuşadadır, ermənilər işğal etdikləri rayonları itiriblər. Çünki müharibə vaxtı Ermənistan hökuməti bunu gizlədirdi. Hətta statuslarda ermənilərin azərbaycanlılara yazdığı rəylərdə belə yalanlara necə inandıqları açıq-aşkar görünürdü. Onlar bizim 44 gündə heç bir qarış da irəliləmədiyimizi düşünürdülər".

Psixoloq deyir ki, bəzən onlar eyni dezinformasiyanı bizə də təbliğ etmək istəyirlər: "Başqa döyüş kadrlarını Qarabağ müharibəsi kimi paylaşır və ya azərbaycanlı əsgərlərin kütləvi şəkildə əsir götürüldüyünü qeyd edirlər. İnsanlar isə bu kadrların hansı müharibəyə aid olduğunu düşünmədən, müəyyənləşdirmədən buna inanırlar".

Hazırda informasiya müharibəsinin cəmiyyətin, hərbçilərin psixologiyasında mühüm rol oynadığını deyən İ.İbrahimovun fikrincə, psixoloji müharibədə məlumatların dəqiqliyi, süzgəcdən keçməsi vacib amillərdəndir. Dövlət bu prosesdən haqlı olaraq narahatdır və yalan məlumatların yayılmasının qarşısını almaq üçün konkret addımlar atır.

### Feyk xəbərləri, zərərli vərdişləri təbliğ edən platforma

Jurnalist Hacıbəy Heydərli də "TikTok"un Azərbaycanda ən kütləvi və təhlükəli sosial şəbəkəyə çevrildiyini hesab edir. "Metrix"in yaydığı infoqrafika haqqında məlumat verən jurnalist deyir ki, Azərbaycanda 1 milyona yaxın "TikTok" istifadəçisi var. Onun sözlərinə görə, bu hələ rəsmi qeydiyyatdan keçənlərin sayıdır. Bununla yanaşı, proqramı yükləyib, qeydiyyatdan keçməyən kənar izləyicilər də az deyil. "TikTok" 2021-ci ildə dünyada ən çox daxil olunan sosial şəbəkə olub. Təkcə bir ildəki qazancı milyard dollarla ölçülür. Burada ən həyəcanlı məqam isə ölkəmizdən "TikTok"a daxil olanların 73,1 faizinin 18-24 yaşlı gənclər olmasıdır. Yəni Azərbaycan gəncliyinin ən çox istifadə etdiyi sosial şəbəkə "TikTok"dur.

H.Heydərli "Tiktok"un təhlükəli tərəfini burada əxlaqsızlığın, feyk xəbərlərin, zərərli vərdişlərin, "oğru aləmi"nin təbliğ olunmasında görür. Son zamanlar ölkədəki əksər problemli proseslərin mənbəyinin bu sosial şəbəkədən qaynaqlandığını vurğulayan jurnalist bildirir ki, çıxış yolu yalnız maarifləndirmə və düzgün təbliğatdan keçir: "Dövlətini, xalqını sevən insanlar bu sosial platformanı da boş qoymamalı, aktiv olmalı, lazım olduqda savaşmalıdırlar. Tanınmış jurnalistlər, bloqçular yalnız status yazmaqla kifayətlənməməli, əksinə, gənclərin, kütlənin çox olduğu meydana çıxmalıdırlar. Yeri gəldikcə, "TikTok"da canlı yayımlar açılmalı, maarifləndirici söhbətlər edilməlidir".

Jurnalist "TikTok"a qeyri-ciddi platforma kimi baxanlara xatırladır ki, orada yayılan hansısa saxta video, dezinformasiya bir anda ölkəni çalxalaya, xaosa gətirib çıxara bilər: "Biz bunu daha öncə Qazaxıstan misalında görmüşük. Belə ki, 2 il əvvəl Almatıda baş verən iğtişaşlar Bakıda imiş kimi insanlara təqdim olundu, bəzi qüvvələr bu saxta videolarla xalqı meydanlara səslədi. O dövrdə dövlət təfəkkürlü insanların ayıq-sayıqlığı nəticəsində bu təxribatların qarşısı alındı".

O qeyd edir ki, belə dezinformasiyaların qarşısını almaq üçün ictimaiyyətlə yanaşı, dövlət qurumları da fəal olmalıdır. "TikTok"un artıq əyləncə platforması deyil, ölkə gündəminə təsir edə bilən bir meydan olduğunu deyən H.Heydərli bildirir ki, Azərbaycan 44 günlük Vətən müharibəsində şanlı qələbə qazansa da, informasiya müharibəsi hələ də davam edir və onun gedişində ayıq-sayıq olmalıyıq.

### Cəmiyyəti bayağılığa sürükləyən platforma

"TikTok"dakı zərərli kontentli paylaşımlarda, bayağı mövzulu canlı yayımlarda keçirilən saatlar hədər olan ömrə çevrilir. Azyaşlıların zərərli vərdiş kimi qurşandığı sosial media həm də onları "tərbiyə" edir: söyüşlər, təhqirlər, mədəniyyətsizliklə...

Paylaşımlar isə sərhəd tanımır. Cəmiyyətdə mənfi imic qazanmış insanlar canlı yayımda öz "məharət"ini göstərmək üçün sanki bir yarış zolağında qaçır. Onlar pul dilənir, rəqibinə qalib gəlmək üçün yalvarışlarla hədiyyələr gözləyir, nalayiq ifadələr işlədir, insan alveri cinayətinə aid hallarla aşkar şəkildə məşğul olur, hər cür rəzilliyə, əxlaqsızlığa rəvac verirlər. İllərlə "ciddi şəxs" kimi imic qazanmış ictimai xadimlər bir göz qırpımında elə bu platformada gözdən düşürlər.

Belə təhlükəli və zövqü korlayan videoların "TikTok"da yayımlanması kifayət deyilmiş kimi həmin kontentli paylaşımların digər sosial şəbəkələrə də daşındığını görürük. Son günlər isə ölkədə "TikTok"un müvəqqəti məhdudlaşdırılması yayılan dezinformasiyaların və təşviş yaradan görüntülərin xeyli azaldığını göstərir. Bu da onu deməyə əsas verir ki, qarşıdakı dövrdə bu kimi neqativ halların, vətəndaşları narahat edən yalan məlumatların, uydurmaların yayılmaması, təxribat xarakterli çağırışların qarşısının alınması məqsədilə "TikTok"un Azərbaycanda fəaliyyətinin dayandırılması məqsədəuyğundur. Bu, ən əsası milli təhlükəsizliyimizin qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir.

*Aydan XƏLİLOVA,*
*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Sürət həddinin azaldılması şəhər mobilliyini gücləndirir

## Bu, yolda hərəkətin təhlükəsizliyinə xidmət edir

"Avropa Mobillik Həftəsi"nə bu il 45 ölkədən qoşulan 2 min 337 şəhərdən biri də Bakıdır. Paytaxtımız artıq ikinci dəfədir ki, aktiv mobillik, ictimai, təmiz və alternativ nəqliyyat vasitələrindən istifadəni təşviq etmək məqsədilə ölkəmizi bu mötəbər beynəlxalq kampaniyada təmsil edir.



Araşdırmalar göstərir ki, şəhərdaxili yollarda 30 km/saat sürət piyadaların, sərnişinlərin və sürücülərin təhlükəsizliyi üçün ideal sürət həddidir. Ona görə layihə çərçivəsində paytaxtda sürət limiti saatda 30 kilometr olan zona xətti təşkil edilib. Sürücülər həmin zonada təhlükəsizliyin təmin olunması üçün avtomobillərinin sürətini azaltmalıdırlar.

### 30 km/saat sürət həddi alternativ nəqliyyat vasitələrindən istifadəni stimullaşdırır

Bu gün dünyanın böyük şəhərlərində dayanıqlı şəhər mobilliyinin tətbiqinə xüsusi əhəmiyyət verilir. Əhalinin sıx olduğu şəhərlərdə alternativ nəqliyyat vasitələrindən istifadənin təşviqi üçün müəyyən tədbirlər görülür. Doğrudur, təyinat nöqtəsinə şəxsi avtomobil vasitəsilə istədiyimiz yol və sürətlə, hətta sevdiyimiz musiqini dinləməklə getmək çox rahatdır. Amma nəzərə almaq lazımdır ki, böyük şəhərlərdə vətəndaşların avtomobillə şəxsi komfortlarını təmin etmək istəyi bəzən tıxaclara səbəb olur.

Şəhərlərdə vətəndaşların daha effektiv nəqliyyat vasitələrindən istifadəsi daim diqqətdə olan məsələdir. Bu istiqamətdə atılan addımlardan biri də bəzi küçələrdə sürət həddinin azaldılmasıdır. Çünki sürət həddi aşağı olan yollarda şəxsi avtomobillə hərəkət edib tıxacda qalmaqdansa, ictimai nəqliyyat növləri və velosiped kimi daha təhlükəsiz və təmiz vasitələrdən istifadə daha düzgün seçimdir.

Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində olan Bakı Nəqliyyat Agentliyindən mətbuata verilən açıqlamada bildirilib ki, sürət həddinin 30 km/saat müəyyən edilməsi havanın çirklənməsinin və səs çoxluğunun azaldılması, xüsusilə də ictimai və alternativ nəqliyyatdan istifadənin təşviqi istiqamətində atılmış mühüm addımdır.

Məlumatda qeyd edilib ki, yeni qaydaların paytaxtda tıxaca səbəb olacağı ilə bağlı iddialar əsassızdır. Sürət limiti təyin olunan zonaya Bakının mərkəzi hissəsini əhatə edən İslam Səfərli, Mirzə İbrahimov, Əlimərdan bəy Topçubaşov, Dilarə Əliyeva, Bəşir Səfəroğlu, Nizami, Əhməd Cavad, H.Z.Tağıyev, Yusif Məmmədəliyev, Zərifə Əliyeva küçələri də olmaqla, ümumilikdə 33 küçə daxildir. Sürət limiti paytaxtın əsas arterial küçə və prospektlərinə təsir göstərmir. Sürət həddinin 30 km/saat təyin edilməsi təhlükəsizliyin təminatı baxımından çox əhəmiyyətlidir. Qərarın effektivliyi vaxt keçdikcə daha aydın görünəcək.

### Növbəti illərdə ölkənin digər böyük şəhərləri bu kampaniyaya qoşula bilər

Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov həftəliyin qeyd olunmasını ictimai nəqliyyatdan istifadənin stimullaşdırılması və ətraf mühitin çirklənməsinin qarşısının alınması, havaya buraxılan zərərli qazların miqdarının azaldılması baxımından faydalı hesab edir. Onun sözlərinə görə, bu, ümumilikdə ekosistemin qorunması və yol hərəkəti iştirakçıları arasında müəyyən nizamın yaranmasına xidmət göstərən kampaniyadır: "Ölkəmizdə də "Avropa Mobillik Həftəsi" çərçivəsində piyada hərəkətinin təşviqi istiqamətində müxtəlif tədbirlərin təşkili təqdirəlayiqdir. Növbəti illərdə ölkənin digər böyük şəhərləri də bu kampaniyaya qoşula bilərlər. Həmçinin aktiv mobilliyin stimullaşdırılmasına xidmət göstərən həftəliyin təşkili zamanı hədəflərin əvvəlcədən aydın şəkildə açıqlanması və ictimai fikrin nəzərə alınması məqsədəuyğun olardı".

Qeyd edək ki, sentyabrın 16-dan 22-dək "Sən də rahat hərəkət et!" şüarı altında keçirilən kampaniya çərçivəsində həmçinin ictimai nəqliyyat prioritetli mühitin formalaşmasının, piyada hərəkətinin, velosiped, eləcə də digər alternativ ekoloji təmiz nəqliyyat vasitələrindən istifadənin təşviqinə xidmət edən müxtəlif aksiya, seminar və fləşmoblar da təşkil edilib. Eyni zamanda şəhər sakinləri arasında şəhər mobilliyi, yol hərəkətinin təhlükəsizliyi və piyada zonalarının təşkilinə dair sorğular keçirilib.

Nəzərə almaq lazımdır ki, XX əsrdə küçələrin avtomobil tutumu hesablanırdısa, XXI əsrdə küçələrin insan tutumu hesablanır. Şəhərlər avtomobillər üçün deyil, daha çox piyadaların rahat hərəkəti üçün əlverişli olmalıdır. Odur ki, yollarda ideal balansın qorunması üçün şəhər mobilliyinin gücləndirilməsinə, ictimai və digər alternativ nəqliyyat vasitələrindən istifadənin təşviqinə xidmət edən addımlar dəstəklənməlidir.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Turizm xalqları bir-birinə yaxınlaşdırır

Turizm xalqımızın mədəniyyətini, adət-ənənələrini, zəngin tarixi keçmişini dünyaya tanıtmaq üçün ən gözəl vasitələrdən biridir.

Təsadüfi deyil ki, dövlət başçısı ölkəmiz üçün bu sahənin əhəmiyyətindən bəhs edərkən xüsusi olaraq vurğulayıb: "Turizm sahəsi həm regionların inkişafı, həm də ki, ölkənin iqtisadi potensialının möhkəmlənməsi üçün, Azərbaycanın imici, dünyaya inteqrasiyası üçün çox mühüm bir vasitədir. Bizim çox gözəl təbiətimiz var. Bəlkə nadir ölkələrdən biriyik ki, burada istənilən təbii şərait, istənilən iqlim var".

Mütəxəssislərin fikirlərinə görə, ölkəmizə gələn turistlərin böyük əksəriyyəti ilk növbədə mədəni irsimiz, tariximiz, ən qədim dövrlərə təsadüf edən yaşayış məskənlərimiz və abidələrimizlə maraqlanırlar. Ona görə də mədəniyyətin təbliğ olunmasında turizmin böyük rolu var. Gələn turistlər daha çox İçərişəhər, Abşeron Milli Parkı, Qarasu vulkanı, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu, Şirvan Milli Parkı, Nabran, Şəki, Yanardağ, Atəşgah, Lahıc və Yanar bulağa səyahət etməyə üstünlük verirlər. Gündən-günə abadlaşan, əsrarəngiz gözəlliyi ilə seçilən Bakı gecələri, rəngarəng işıqları ilə göz oxşayan Alov qüllələri də türistlərin daha çox izlədikləri, üz tutduqları məkanlar sırasındadır.

Dünyada ölkəmizə olan diqqət gündən-günə artır. Bu fakt respublikaya gələn xarici qonaqların sayına da təsir göstərir. Turistlərin ölkəmizə axını yeni turizm marşrutlarının yaranmasını zəruri edir.

30 ilə yaxın ürəyimizdə Qarabağ adlı bir dərdimiz vardı. Mənfur ermənilər bu onilliklərdə turizm baxımından daha əhəmiyyətli, daha çox təbii gözəlliyi, füsunkar təbiəti ilə seçilən, zəngin tarixi abidələrin və mədəni irsimizin saxlanc yeri olan Qarabağı işğal edib, tarixi abidələrimizi, dini ocaqlarımızı dağıdıb məhv etməklə, yaxud "özəlləşdirmək"lə məşğul idilər. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi tarixi ədalətin bərpası üçün aparılan bir müharibə idi. Ordumuzun şücaəti, Müzəffər Ali Baş Komandanın qətiyyəti ilə torpaqlarımız işğaldan azad edildi. Ədalət zəfər çaldı. Bununla əsirlikdə olan tarixi abidələrimizi, mədəni irsimizi də xilas etdik. Qədim şəhərimiz olan Şuşa mədəniyyət paytaxtımız elan olundu. Qısa zamanda bu qədim şəhərdə və digər işğaldan azad olunmuş ərazilərimizdə erməni vandalizmindən zərər çəkmiş, dağıdılmış tarixi mədəni abidələrimizin bərpasına start verildi. Artıq bəzi tarixi abidələrimiz, məscidlərimiz bərpa olunaraq öz "ikinci həyat"larını yaşayırlar. İftixar hissi ilə deyə bilərik ki, Şuşa şəhəri, işğaldan azad edilmiş digər rayonlarımız indi turistlərin, səyyahların ən çox diqqətini cəlb edən ünvanlardır.

Bu il sentyabrın 21-də düşmən işğalından azad olunmuş Laçında, Kəlbəcərdə olan Müzəffər Ali Baş Komandan bu yerlərin təbii gözəlliklərini, uca dağlarını, gur axan səsli-küylü dağ çaylarını, geniş ormanlarını göstərərək - "Bu yerlər əsl cənnətdir, biz buraları abadlaşdırıb əsl cənnətə döndərəcəyik. Turizmin inkişafı üçün bu torpaqlar çox əlverişli bir məkandır", - deyərək işğaldan azad olunmuş torpaqlarımızın turizm üçün uğurlu perspektivini bir daha qeyd etmiş oldu. Biz isə hər gün abadlaşan, gözəlləşən vətənimizə baxıb qürurla deyirik: "Cənnət görmək istəyən Azərbaycana gəlsin".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# AZAL yeni yüksəklikləri fəth edir və dünya miqyasında bir daha tanınır

**AZAL-ın fəaliyyətinin uğurlu nəticələri yenidən layiqincə qiymətləndirilib və beynəlxalq miqyasda yüksək səviyyədə tanınıb. Azərbaycan aviaşirkətləri növbəti dəfə dünya mülki aviasiyasında göstərdikləri yüksəksəviyyəli xidməti və möhkəm mövqelərini təsdiq ediblər.**



Aviaşirkətin Mətbuat xidmətinin verdiyi məlumata görə, Azərbaycanın milli aviadaşıyıcısı və ölkənin ilk aşağıbüdcəli aviadaşıyıcısı "Buta Airways" şirkəti "Skytrax" tərəfindən dünya miqyasında "World Airline Awards 2022" nominasiyasında - "Mərkəzi Asiya və MDB ölkələrinin ən yaxşı regional aviaşirkəti" və "Mərkəzi Asiya və MDB ölkələrinin ən yaxşı aşağıbüdcəli aviaşirkəti" nominasiyasının qalibi olmuşdur.

Vəzifələrini ardıcıl yerinə yetirməsi və öz fəaliyyətinə yüksək diqqət göstərməsi Azərbaycan aviaşirkətlərinin nominasiyalarda qalib olması və sərnişinlər tərəfindən tanınması ilə nəticələnmişdir. Bu, bizim üçün parlaq qələbədir. Qeyd edək ki, "Skytrax" versiyasına görə ən yaxşı aviaşirkət uğrunda bu yarışma miqyası və sərt rəqabəti ilə fərqlənir.

"Azərbaycan Hava Yolları" aviaşirkəti bu kateqoriyada 11-ci dəfə mükafata layiq görülüb. Etibarlılıq və gözəl xidməti ilə seçilən, nisbətən gənc aviaşirkət olan "Buta Airways" isə ilk dəfə "Skytrax" tərəfindən nominasiyada qalib olub.

"World Airline Awards" - aviasiya sahəsində ən statuslu mükafatlardan biridir. Hər il "World Airline Awards" mükafatının sahibləri mülki aviasiyanın ən yaxşı nümayəndələri olurlar. Məhsulun keyfiyyəti, sərnişinlərə göstərilən xidmətin səviyyəsi və uçuşların təhlükəsizliyi qiymətləndirmənin əsas meyarlarıdır.

AZAL brendinin qələbəsi Azərbaycan aviaşirkətlərinin qlobal aviasiya bazarında mükəmməl işinin parlaq sübutudur. Bu tanınma ikiqat qiymətlidir, belə ki, o, dünya və Azərbaycan mülki aviasiyası üçün son dərəcə çətin şəraitdə - pandemiya şəraitində əldə edilmişdir. Lakin çətinliklərə və çağırışlara baxmayaraq, Azərbaycan aviaşirkətləri sərnişinlərə yüksəkkeyfiyyətli xidmətin göstərilməsi, uçuşların təhlükəsizliyinin və rahatlığının təmin olunması üçün nə lazımdırsa etmişdilər. Etibarlı və gənc hava gəmiləri parkı, uçuşların coğrafiyasının davamlı inkişafı, uçuşların yüksəksəviyyəli xidməti və təhlükəsizliyi "Azərbaycan Hava Yolları" və "Buta Airways" şirkətlərinin beynəlxalq arenadakı uğurlarına zəmanət verir.

Sentyabrın 23-də dünyanın ən qədim paytaxtlarından və "Azərbaycan Hava Yolları"nın marşrut şəbəkəsinə daxil olan istiqamətlərdən biri olan Londonda Azərbaycan aviaşirkətlərinin təntənəli mükafatlandırma mərasimi keçirilmişdir.

Xatırladaq ki, "Azərbaycan Hava Yolları" sərnişin aviaşirkəti həmçinin "Skytrax" tərəfindən "4 ulduz" reytinqinə layiq görülmüşdür. Bu status aviaşirkət tərəfindən havada və yerdə təklif edilən xidmətlərin keyfiyyətini yoxlayan müstəqil auditin nəticələrinə əsasən əldə edilir.

"Aviaşirkətlərin göstərdiyi xidmətlərin yoxlanılması sahəsində nüfuzlu təşkilat olan "Skytrax" bir daha bizim fəaliyyətimizi yüksək qiymətləndirib. Qeyd edim ki, AZAL-ın bütün nailiyyətləri və uğurları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qayğısı və dəstəyi sayəsində mümkün olmuşdur. Bu nominasiyalarda qələbə bizim üçün mühüm əhəmiyyət kəsb edir. Bu, Azərbaycan aviaşirkətləri tərəfindən göstərilən xidmətin etibarlılığının və yüksək keyfiyyətinin təminatı, həmçinin beynəlxalq aləmdə onlar tərəfindən qəbul olunmasının sübutudur. AZAL daim brendin təkmilləşdirilməsi üzərində çalışır və hər zaman öz sərnişinlərinə qarşı diqqətli olur", - deyə AZAL-ın prezidenti Cahangir Əsgərov bildirib.

"Mərkəzi Asiya və MDB ölkələrinin ən yaxşı regional aviaşirkəti" mükafatına 11-ci dəfə layiq görülməsi "Azərbaycan Hava Yolları" aviaşirkətinin fantastik nailiyyətidir. Son 18 ayın bütün çağırışlarına baxmayaraq, sərnişinlərin dəstəyi "Azərbaycan Hava Yolları"nın rəhbərliyi və bütün kollektivi üçün qiymətlidir", - deyə "Skytrax"ın icraçı direktoru Edvard Playsted bildirib.

Qeyd edək ki, Heydər Əliyev Beynəlxalq Aeroportu Bakıda "Skytrax" şirkətinin ən yüksək reytinqinin - "5 Ulduz" mükafatının sahibidir. O, həmçinin "Skytrax" "World Airport Awards" versiyasına görə dəfələrlə Mərkəzi Asiya və MDB ölkələri üzrə ən yaxşı hava limanı reytinqinə başçılıq edib.

"Skytrax" müxtəlif aviaşirkətlər və hava limanları tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin öyrənilməsi üzrə ixtisaslaşmış nüfuzlu Britaniya şirkətidir. Şirkət aviadaşıyıcıların və hava limanlarının xidmətinin keyfiyyətini qiymətləndirmək məqsədilə hər il sərnişinlər arasında müxtəlif sorğular keçirir.

# Mövsümi qriplərdən necə qorunaq?

*Əvvəli 1-ci səh.*



Bu qrup xəstəliklərə: qrip, paraqrip, adenovirus və rinovirusların törətdiyi xəstəliklər aiddir. Xüsusilə A, B, C tipli qrip viruslarına daha çox rast gəlinir. Onlar epidemiyaya çevrilərək yoluxma ehtimalını artırırlar. Bu viruslar 6-8 həftəlik bir müddəti əhatə edir.

Bütün kəskin respirator virus infeksiyaları üçün xəstəliyin ilkin əlamətləri demək olar ki, eynidir: hərarətin tədricən qalxması, baş və boğaz ağrıları, asqırma, öskürmə, iştahanın azalması, yuxunun pozulması və s. Viruslara yoluxma asqırma, öskürmə zamanı milyonlarla virusun ətrafa yayılması nəticəsində baş verir. Bu zaman digər xəstəliklər də (anginalar, uşaq serebral iflici, vərəm, böyrək xəstəlikləri və s.) kəskinləşir.

## Həkimlər virusa yoluxmamaq üçün vaksinasiyanı vacib hesab edir

Qripin əsas profilaktik metodu vaksinasiya hesab edilir. Vaksin orqanizmin immunitetini artırır və əhalinin sağlamlığının qorunmasına yardım edir. Bununla bağlı infeksionist bildirir ki, risk qrupuna ağır xroniki xəstəliklərdən əziyyət çəkənlər, 65 yaşdan yuxarı şəxslər, hamilə və süd verən qadınlar, onkoloji xəstələr, xüsusilə də xəstəxana və baxım evlərində çalışan personal daxildir. Vaksinasiya olunmayan bu şəxslər qripi daha ağır keçirəcəklər.

Həkim bildirir ki, vaksinlərin qoruyuculuğu bir il olur. Ondan sonra növbəti ilin ştamına uyğun peyvənd hazırlanır və əsasən oktyabr-noyabr aylarında tətbiq olunmağa başlanılır. Bunun sayəsində immunitet 14 gündən sonra bərpa olunur. Təqribən vaksin olunmuş hər 10 şəxsdən 7-8-i immunitet qazanır. Peyvənddən sonra cüzi əzələ ağrısı, hərarətin bir az qalxması müşahidə edilsə də, ağır simptomlar yaşanmır.

A.Kərimova söyləyir ki, viruslardan qorunmaq üçün tibbi maska taxmaq, şəxsi gigiyena qaydalarına əməl etmək, əlləri tez-tez sabunla yumaq və ya dezinfeksiya etmək lazımdır. Xəstəliyə yoluxmuş şəxslər isə mütləq qaydada birdəfəlik tibbi maskalar taxmalı və onları 4-6 saatdanbir dəyişməlidirlər.

Mövsümi qriplər koronavirusdan kəskin fərqlənmir. Qripə tutulma zamanı asqırma, göz və burunətrafı nahiyələrin qızarması, burun axma şikayətlərinin daha ön planda olması, şiddətli baş ağrıları müşahidə edilir. Hər iki halda xəstə özünü ətrafdakılardan təcrid etməlidir. Narahatlıqları artarsa, mütəxəssislərə müraciət edib diaqnostik dəqiqləşdirmə aparılmasına ehtiyac var.

## Viruslarla mübarizədə düzgün qidalanma da önəmlidir

Mütəxəssislər bildirirlər ki, balanslaşdırılmamış və yetərsiz qidalanma immuniteti zəiflədərək orqanizmi müdafiəsizləşdirir, xəstəliklərə yoluxma riskini artırır və onun gedişatını ağırlaşdırır.

Buna görə də xəstəlik zamanı əsas məqsəd maye və mineral balansını təmin etməkdir. Xüsusilə də rotavirus, adenovirus zamanı qida rasionlarından ətli, yağlı, qızarmış və çətin həzm edilən qidalar çıxarılmalıdır. Buğda unundan hazırlanmış çörək, yağsız ət, qatıq, meyvə və tərəvəz kimi əlavə şəkər qatqısı olmayan yumşaq qidalara üstünlük verilməlidir.

Bədən temperaturunun sabit saxlanılması və infeksion toksinlərin orqanizmdən xaric olunması üçün 1.5-2 litr maye qəbulu olmalıdır. Temperaturun qalxdığı dövrlərdə maye qəbulu artırılmalı və bədən yetərli enerji ilə təmin olunmalıdır. Enerji qaynağı kimi bəsit karbohidratlar olan rafinə edilmiş şəkər və şəkərli qidaların yerinə taxıl məhsullarına daha çox üstünlük verilməlidir.

Kəskin respirator virus infeksiyalarının profilaktikası zamanı məktəb, universitet və digər qapalı ictimai məkanlarda dezinfeksiya tədbirləri aparılmalı, otaqların havası mütəmadi olaraq dəyişilməli, qapı dəstəkləri tez-tez silinməlidir.

Ümumiyyətlə, hər bir xəstəlikdən, eləcə də kəskin respirator virus infeksiyaları və qripdən qorunmağın ən yaxşı yolu vaxtında aparılan profilaktik tədbirlər və peyvəndlərin vurulmasıdır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*


UNHCR
United Nations High Commissioner for Refugees

## Calls for Expression of Interest

The Office of the United Nations High Commissioner for Refugees in Azerbaijan (UNHCR) is interested to identify potential NGO partners in the country to developed projects in three (3) key areas targeting internally displaced persons (IDPs). The interested organizations should submit a Concept note for one of the three areas:

- **Support to Gender equality and empowerment.**
- **Support for Community mobilization.**
- **Support for awareness raising for Explosive Ordinance Risk Education (EORE).**

NGOs interested in more than area need to submit separate Concept notes. Details on eligibility and how to submit your Concept note are described in each *Call for Expression of Interest* separately.

For details please visit **https://azerbaijan.un.org/en/200617-calls-expression-interest** website.

Concept note along with the other supporting documents should be submitted by **Friday, 28 October 2022 at 17:00 hours** Baku time.

UNHCR
United Nations High Commissioner for Refugees

## Maraq ifadə etməyə dəvət

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı Nümayəndəliyi (BMT QAK) məcburi köçkünlərə yönəlik üç (3) əsas sahədə layihələr hazırlamaq üçün ölkədəki potensial QHT tərəfdaşlarını müəyyən etməkdə maraqlıdır. Maraqlanan təşkilatlar aşağıdakı üç sahədən biri üçün konseptual təklif təqdim etməlidirlər:

- **Gender bərabərliyinə və bu sahədə imkanların artırılmasına dəstək.**
- **İcma səfərbərliyinə dəstək.**
- **Partlayıcı vasitələrin riskləri ilə bağlı maarifləndirmə üçün məlumatlılıq səviyyəsinin artırılmasına dəstək.**

Birdən artıq sahə ilə maraqlanan QHT-lər ayrı-ayrı konseptual təkliflər təqdim etməlidirlər. Konseptual təklifinizin tələblərə uyğunluğu və necə təqdim edəcəyinizlə bağlı təfərrüatlar "Maraq ifadə etməyə dəvətlərin" hər birində ayrıca təsvir edilmişdir.

Ətraflı məlumat üçün lütfən bu sayta daxil olun: **https://azerbaijan.un.org/en/200617-calls-expression-interest.**

Konseptual təklif digər təsdiqedici sənədlərlə birlikdə **cümə günü, 28 oktyabr 2022-ci il tarixdə, Bakı vaxtı ilə saat 17:00-a qədər** təqdim edilməlidir.

*Təkrar*

## "Azərenerji" ASC
## Müxtəlif növ kabel, naqil, tros və optik trosların satın alınması üzrə
## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (Əlaqələndirici şəxs: Həmid İsazadə, telefon: 490-09-27, 598-05-56; e-mail: hemid.isazadə@azerenerji.gov.az).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: "Kapital Bank" ASC Mərkəz filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət və iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində (və ya fəaliyyətə başladığı dövrdən) özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının analoji satınalmalarda təcrübəsi haqqında məlumat;*
- *iddiaçının son 3 (üç) illik iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar;*
- *müvafiq sertifikatlar və lizensiyalar.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **25 oktyabr 2022-ci il saat 15:00-a** qədər, bank təminatını və tender təklifini isə **02 noyabr 2022-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10, ünvanına "Tender və müqavilə" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **03 noyabr 2022-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır. Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların e-maillərinə müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən **www.etender.gov.az** saytında "Respublika ərazisində bir sıra təhsil müəssisələrinin cari təmiri və abadlıq işlərinin satın alınması"na dair 21 sentyabr 2022-ci il tarixdə dərc edilmiş açıq tender prosedurunun elanında səhvən müsabiqədə iştirak haqqı məbləği "0" manat qeyd olunub. Müsabiqədə iştirak haqqı 1500 (bir min beş yüz) manat təşkil edir.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
## Dənizçi MTK-nın balansında olan yaşayış binalarına dəsmalquruducu radiatorların (suşilka) quraşdırılması xidmətlərinin (mal-material və işçilik daxil) satın alınması məqsədilə
## *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 3 oktyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Abşeron rayonu Saray qəsəbəsində yerləşən "Şərur MTK"-ya məxsus binanın 1-ci giriş, 3-cü mərtəbə 18/19 nömrəli Novruz Sabir oğlu Quliyevə aid mənzilin müqavilə və maliyyə arayışı sənədləri itdiyi üçün etibarsız sayılır.

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 6565**
**Sifariş 2657**
**Qiyməti 40 qəpik**